**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*əlyazması hüququnda*

**DƏYANƏT ADGÖZƏL OĞLU TAĞIYEV**

# MÜLKİ HÜQUQDA FAKTORİNQ: HÜQUQİ ASPEKTLƏRİ

**İXTİSAS: 5608.01- «Mülki hüquq; sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq»**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V TO R E F E R A T I**

**BAKI - 2015**

Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin «Mülki hüquq» kafedrasında yerinə yetirilmiş, müzakirə olunmuş və əsas müdafiəyə tövsiyə edilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor M.D.DƏMİRÇİYEVA** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor A.İ.ABDULLİN**<br>**hüquq üzrə fəlsəfə doktoru G.H.KƏRİMOV** |
| **Aparıcı təşkilat:** | **Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrası** |

Dissertasiya işinin müdafiəsi «_29__» «_09_» 2015-ci il tarixdə saat «_____» Bakı Dövlət Universitetinin nəzdində təşkil edilmiş FD.02.013 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» «_________» 2015-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Faktorinq müqaviləsi və bununla bağlı hüquqi münasibətlər Azərbaycan hüquq sistemində olduqca yeni sayılan bir anlayışdır. Bunun başlıca səbəbi Azərbaycan Respublikasının (AR) uzun müddət keçmiş Sovet İttifaqının tərkibində olması ilə bağlı olmuşdur. Çünki, Sovet İttifaqı istehsal vasitələri üzərində xüsusi mülkiyyəti qadağan etmiş və istənilən növ gəlir əldə etmək məqsədinə xidmət edən müxtəlif növ xüsusi təşəbbüsü də qadağan edirdi. Bu səbəbdən də, xüsusi hüquqa aid əksər hüquq sahələrinin əmələ gəlib inkişaf etməsi üçün Sovet İttifaqında faktiki olaraq heç bir hüquqi şərait olmamışdı. Buna görə də, Sovet İttifaqının dağılması ilə birlikdə, bu məkanda meydana gələn yeni dövlətlərin hamısı üçün səciyyəvi olan ümumi xüsusiyyətlərdən biri də məhz belə bir "mirasa" varis olmaları idi.

Sozügedən dövlətlərin, demək olar ki, hamısı, o cümlədən AR, müstəqilliyini əldə etdikdən sonra istehsal vasitələri üzərində xüsusi mülkiyyətlə əlaqədar qadağanı və xüsusi təşəbbüslərlə bağlı qadağaları nəinki aradan qaldırdı, hətta bazar iqtisadiyyatının əsası kimi bu istiqamətdə olan fəaliyyətlərin dəstəklənməsini dövlət qarşısında qoyulan əsas vəzifələrdən biri kimi qəbul etməyə (məsələn, AR Konstitusiyasının 15.2-ci maddəsi) başladı. Bunun nəticəsində də sərbəst bazar iqtisadiyyatına keçid prosesinə qədəm qoyulmaqla ölkənin iqtisadi quruluşu kökündən dəyişməyə başladı. Belə bir vəziyyətdə, cəmiyyətdə formalaşan yeni münasibətlərin hüquqi baxımdan tənzimlənməsi zərurəti çox aşkar bir səkildə özünü hiss etdirməyə başladı. Bu nöqteyi-nəzərdən də bazar iqtisadiyyatı şəraitində meydana gələn xüsusi hüquq münasibətlərini tənzimləyən başlıca sahəvi qanun kimi 28 dekabr 1999-cu il tarixində AR-in Mülki Məcəlləsi (AR MM) qəbul olundu və 1 sentyabr 2000 tarixindən etibarən isə qüvvəyə mindi.

Azərbaycan cəmiyyətinin müasir inkişaf mərhələsində bazar iqtisadiyyatı sosial sabitliyi təmin etməyin, əhalinin maddi rifah halının və respublika vətəndaşlarının sosial-mədəni səviyyəsini yüksəltməyin, iqtisadi siyasətin məqsədlərindən biri sayılan iqtisadi tərəqqiyə və artıma nail olmağın, ölkədə təsərrüfat münasibətlərinin sağlam və sivil əsaslarla inkişaf etdirməyin, eləcə də ehtiyat və resurslardan daha səmərəli istifadə olunmasının yeganə yolu sayılır. Müstəqillik əldə etdikdən sonra AR-də bazar iqtisadiyyatının formalaşması bir sıra yeni iqtisadi anlayışların (məsələn, biznes, kommersiya və digər anlayışların) yaranmasını şərtləndirir ki, sahibkarlıq fəaliyyəti həmin anlayışlardan biridir. Sovet dövründə uzun müddət «sahibkarlıq fəaliyyəti» terminінə məhəl qoyulmamış, onun əvəzinə «təsərrüfat fəaliyyəti» anlayışı işlədilmişdi ki, bu da təbii idi, belə ki, həmin dövrdə xüsusi mülkiyyət olmadığından sahibkarlıq fəaliyyətinə nəinki icazə verilmirdi, hətta onun həyata keçirilməsi cinayət məsuliyyətinə səbəb olurdu[1].

[1] Suleymanlı S. Definition and Elements of Commercial Activity (Enterpreneurship), South Caucasus Law Journal, 3/2012, p. 70.



Respublikamız müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatının hərəkətverici qüvvəsi sayılan və bazar təsərrüfat mexanizminin əsası hesab edilən sahibkarlıq fəaliyyətinə rəsmi surətdə icazə verildi və onun həyata keçirilməsini leqallaşdırmaq üçün «Sahibkarlıq fəaliyyəti haqqında» Qanun (15 dekabr 1992-ci il) qəbul edildi. Ölkəmizin əsas qanunvericilik bazası olan 1995-ci il Konstitusiyası azad sahibkarlıq fəaliyyəti prinsiplərindən çıxış edir ki, bu prinsip sahibkarlığa konstitusiya səviyyəsində qanuni status verir. Konstitusiyanın «Azad sahibkarlıq hüququ» adlı 59-cu maddəsində deyilir: «hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqası ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər». Burada azad sahibkarlıq hüququ kimi subyektiv konstitusion hüquq təsbit olunmuşdur ki, o, 1995-ci il Konstitusiyasının nəzərdə tutduğu əsas sosial-iqtisadi hüquqlardan biri sayılır. Həmçinin, sahibkarlıq fəaliyyətinə əsaslanan bazar iqtisadiyyatının inkişafına şəraitin yaradılması, dövlətin üzərinə düşən bir vəzifə kimi AR-in Konstitusiyasında (maddə 15.2) nəzərdə tutulmuşdur. Mənfəət götürmək məqsədilə əmtəə istehsalına və satışına, işlər görülməsinə, xidmətlər göstərilməsinə yönələn və ayrı-ayrı şəxslər tərəfindən müstəqil surətdə həyata keçirilən sahibkarlıq fəaliyyəti istehsalın əsas amili sayılır.

Sahibkarlıq fəaliyyəti bazar təsərrüfatının elə bir xüsusi sahəsidir ki, bu sahənin köməyi ilə istehsal edilən məcmu ictimai məhsulun və milli gəlirin həcmini artırmaq, yeni iş yerləri açmaq, habelə qabaqcıl və yüksək gəlirli texnoloji prosesləri sənaye və kənd təsərrüfatı komplekslərinə tətbiq etmək mümkün olur.

Hazırda Respublikamızın sürətli iqtisadi inkişafı, ticarət əlaqələrinin intensiv xarakter alması, ölkədə sabit siyasi və iqtisadi mühitin qorunması və bunun nəticəsi kimi xarici kapital axını, yeni müəssisə və təşkilatların fəaliyyətə başlaması prosesləri gedir. Respublikamızın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır.

AR Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında qeyd edilir ki, Konsepsiya çərçivəsində qarşıya qoyulan sosial-iqtisadi hədəflər yüksək səmərə ilə fəaliyyət göstərən, dünya miqyasında rəqabətə qadir olan iqtisadi sistemin formalaşmasını şərtləndirir. Tarixi və müasir təcrübə göstərir ki, belə bir sistem yalnız sahibkar təşəbbüsünə və sərbəst rəqabətə əsaslanan bazar münasibətləri şəraitində yer ala bilər. Bununla bərabər, iqtisadi və sosial sahələrdə davamlı yüksək artım sürətinin təmin olunması bazar iqtisadiyyatı şəraitində dövlət tənzimləməsinin adekvat şəkildə qurulmasını, qlobal dünya iqtisadiyyatındakı son meylləri və istiqamətləri nəzərə almaqla, bu tənzimləmənin daha da təkmilləşdirilməsini tələb edir.

Bütövlükdə, azad sahibkar təşəbbüsü və sərbəst rəqabətə əsaslanan bazar münasibətlərinin inkişafı həm daxili iqtisadi inkişafa, eyni zamanda xarici iqtisadi əlaqələrin inkişafına zəmin yaradır. Mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq öz fəaliyyətini AR qanunvericiliyinə uyğun surətdə həyata keçirən sahibkarın hüquqlarının və qanuni mənafelərinin müdafiəsini dövlət təmin edir. AR iqtisadi müstəqilliyinin əsasları haqqında AR Konstitusiya Qanununun 7-ci maddəsinə müvafiq olaraq, sahibkarlar üçün bərabər iqtisadi şərait yaradılır və bərabər hüquqi təminatlar müəyyən edilir. Hüquqları müdafiə olunmayan sahibkar gec-tez bu hüquqdan imtina etməyə məcbur olur, bu isə sonda azad sahibkarlıq hüququnun, o cümlədən həmin hüquqdan istifadənin gərəksizliyinə gətirib çıxarır. Buna görə də, sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsi, həmin hüquq və maraqların hüquqi müdafiə mexanizmlərinin müasirləşdirilməsi, təkmilləşdirilməsi, bu istiqamətdə çatışmazlıqların aradan qaldırılması vacib şərtdir.

Müasir dövrdə hər bir dövlətin milli iqtisadiyyatı qaçılmaz şəkildə beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiya edir, milli sərhədləri aşır və mütləq şəkildə beynəlxalq faktorun təsirinə məruz qalır. İqtisadi münasibətlərin beynəlmiləlləşməsi bütün fəaliyyət sferalarında inteqrasiya proseslərinin formalaşması və inkişafını obyektiv şəkildə şərtləndirir.

Azad sahibkarlıq fəaliyyəti sahəsində mövcud beynəlxalq normaların dövlətdaxili qanunvericiliyə uyğunlaşdırılması Azərbaycanın müasir sahibkarlıq sektorunun inkişafında, sahibkarlıq fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsində və ümumilikdə iqtisadiyyatın inkişafında irəliyə doğru atılmış mühüm addımdır. Ölkədə sağlam sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Sahibkarlığın inkişafı yeni iş yerləri yaradır, istehlak bazarına yeni məhsul növü çıxarır, vergi ödəyicilərinin sayını artırır, iqtisadi islahatların sosial bazası kimi əhalinin orta təbəqəsini formalaşdırır. Digər tərəfdən sahibkarlığın inkişafı xarici investisiya axınını gücləndirir və ölkənin dünya iqtisadiyyatına inteqrasiya olunmasını sürətləndirir. Azərbaycan dövləti sahibkarlığın sürətlə inkişaf etdirilməsini ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab edir. Beynəlxalq praktikadan o da məlumdur ki, səmərəli fəaliyyət göstərən, oturuşmuş və güclü sahibkarlıq institutunun formalaşması və inkişafı uzunmüddətli bir proses olub, xeyli dərəcədə hakimiyyət orqanları tərəfindən müəyyənləşdirilən iqtisadi, hüquqi, siyasi və s. şəraitin əlverişlilik, həm də dövlətin biznesin və cəmiyyətin partnyorluğunun səmərəlilik dərəcəsindən asılıdır.

Azərbaycanda həyata keçirilən iqtisadi siyasətdə əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaların cəlb edilməsi və qeyri-neft sektorunun güclü inkişafına nail olunması mühüm aktuallıq kəsb edir. Qeyri-neft sektorunun hərtərəfli, sürətli və səmərəli inkişafının təmin edilməsinin ən zəruri şərtlərindən biri sahibkarlığın inkişaf etdirilməsi, ilk növbədə, kiçik və orta biznesin fəaliyyətinin effektivliyinin artırılmasıdır.



Respublikamızda biznes mühitinin və ümumilikdə sahibkarlığın inkişafı Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuşdur və bu gün AR Prezidenti cənab İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir.

Bazar iqtisadiyyatı şəraitində rəqabət səviyyəsinin çox sürətlə artması, heç şübhəsiz, XX əsrdən başlayaraq baş verən böyük iqtisadi inkişafın əsas səbəblərindən biridir. Bu dövrdə bazardakı rəqabət elə bir həddə gəlib çıxmışdır ki, bazar subyektləri beynəlxalq ticarət münasibətləri qurmadığı təqdirdə, onların daxili rəqabət bazarında özlərinə etibarlı mövqe tuta bilmələri, demək olar ki, mümkünsüz hala gəlmişdir. Belə bir böyük rəqabət şəraiti, bazar subyektlərinin maliyyə vəsaitlərinə olan ehtiyaclarının çox kəskin sürətdə artmasına səbəb olmaqla yanaşı, həm də daimi maliyyə axımının təmin edilməsi zərurətinin meydana gəlməsinə səbəb olmuşdur. Beləliklə, daimi maliyyə axımının necə təmin olunması məsələsi, böyük iqtisadi əhəmiyyət kəsb edən aktual bir məsələ kimi qarşıya çıxmışdır. Belə bir vəziyyət, yeni-yeni maliyyələşdirmə metod və üsullarının hazırlanıb istifadə edilməsinə səbəb olmuşdur. Bazar subyektlərinə maliyyə axımını təmin edən bu cür müasir maliyyələşdirmə üsullarından biri də məhz faktorinq müqaviləsidir.

Sahibkarlıq fəaliyyəti ictimai həyatın olduqca müxtəlif sahələrində həyata keçirilə bilən bir fəaliyyətdir. Bu fəaliyyətin həyata keçirilməsinin ən mühümlərinin başında isə müqavilələr gəlir[2]. Belə ki, sahibkar istənilən halda istehsal etdiyi mal və xidmətləri müqavilələr bağlamaq yolu ilə mənfəətini reallaşdıra bilir[3]. Bu cür sahibkarlıq fəaliyyəti ilə bağlı müqavilələrdən biri də faktorinq müqaviləsidir.

Müasir dövrdə əsasən inkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrdə geniş yayılmış bir müqavilə növü kimi faktorinq öz başlanğıcını XIX əsrin birinci yarısından formalaşmış praktikadan götürmüşdür. Bu praktikaya görə mal satışı ilə məşğul olan ticarət şirkətləri həmin malı hazırlayan istehsalçılara maliyyə xarakterli kommersiya xidmətləri göstərir.

Müasir dövrün iqtisadi və hüquq ədəbiyyatlarında "faktorinq" (factoring) deyilərkən, bankların və digər kredit təşkilatlarının həyata keçirdikləri və əmlak dövriyyəsinin peşəkar iştirakçılarının (kommersiya təşkilatçılarının) maliyyələşdirilməsinə yönələn elə sahibkarlıq fəaliyyəti başa düşülür ki, bu fəaliyyətə görə banklar və digər kredit təşkilatları üçüncü şəxsə mal verilməsindən, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən irəli gələn pul tələbinin onlara güzəşt edilməsinin müqabilində həmin pul tələbinin sahibi olan əmlak dövriyyəsinin iştirakçılarına (kommersiya təşkilatlarına) pul vəsaiti verir, yəni onları maliyyələşdirir. Bu cür əməliyyat isə öz növbəsində aktivlərin likvidliyinin yüksəldilməsinə, kapitalın dövriyyəsinin artırılmasına, eləcə də pul vəsaiti verən (faktorinq fəaliyyətini həyata keçirən) sahibkarların rentabelli işləmələrinə imkan verir. Məhz bu səbəbdən bazar iqtisadiyyatı inkişaf etmiş müasir dövlətlərdə

[2] Oğuzman K.T. Öz, Borçlar hukuku genel hükümler, Cilt 1, Vedat kitapçılık, İstanbul 2012, s. 42-80.
[3] Atamer Y.M., Sözleşme Özgürlüğünün Sınırlandırılması Çerçevesinde Genel İşlem Şartlarının Denetlenmesi, Beta kitabevi, İstanbul 2001, s. 14.

faktorinq müqaviləsi, maliyyə institutlarının fəaliyyətində mühüm yer tutur.

Faktorinq eyni zamanda beynəlxalq iqtisadi-ticarət münasibətləri sahəsində geniş tətbiq olunan sahibkarlıq fəaliyyəti növüdür. İnkişaf etmiş bazar iqtisadiyyatına malik olan ölkələrdə, faktorinqdən ölkə daxili və beynəlxalq ticarət dövriyyəsində olduqca geniş bir şəkildə istifadə olunur ki, bu da öz növbəsində 28 may 1988-ci ildə Ottava şəhərində Beynəlxalq Faktorinq Haqqında Konvensiyanın qəbul edilməsinə və imzalanmasına gətirib çıxarmışdır. Bu Konvensiya faktorinq kimi sahibkarlıq fəaliyyətinin beynəlxalq hüquqi tənzimlənməsini həyata keçirən əsas sənəddir.

Faktorinq, müasir mənadakı xüsusiyyətləri etibarı ilə ilk olaraq ABŞ-da meydana gəlsə də, hazırda artıq dünyanın demək olar ki, bütün böyük dövlətlərində bu maliyyə əməliyyatından çox geniş bir şəkildə istifadə olunmaqdadır. Hətta İtaliya faktorinq əməliyyatlarının həcminə görə ABŞ-ı belə keçmişdir[4]. Beynəlxalq təcrübədə bazar münasibətləri çərçivəsində faktorinq əməliyyatlarının dövriyyə həcmi, xüsusilə ötən əsrin 90-cı illərindən etibarən, olduqca yüksək sürətlə böyüməkdədir. Bununla bağlı təkcə bu faktı demək kifayətdir ki, 1990-cı ildə dünya bazarında faktorinq əməliyyatlarının dövriyyəsi 244 milyard ABŞ dolları olduğu halda, 1998-ci ildə 536 milyard ABŞ dolları, 2008-ci ildə 1.86 trilyon ABŞ dolları həcmində, 2012-ci ilin göstəricilərinə görə isə, bu rəqəm 2.81 trilyon dollar həcminə qalxmışdır[5].

Dünya bazarında bu qədər böyük bir əməliyyat dövriyyəsini həyata keçirmək vasitəsi olan faktorinq, yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanın hüquq sistemi üçün tamamilə yeni bir institut sayılır. AR qanunvericiliyində bu institutla birbaşa bağlı olan normalar əsasən Beynəlxalq Faktorinq Haqqında 1988-ci il Ottava Konvensiyasının müddəa və prinsiplərinə əsaslanır. Belə ki, AR-in faktorinq haqqında normalarının əksəriyyəti həmin Konvensiyanın normalarını mahiyyətcə təkrarlayır. Konvensiya normaları AR-dəki bu tənzimetmənin əsasını təşkil etsə də, bəzi məsələlərdə onun müddəaları AR mülki qanunvericiliyi tərəfindən qəbul olunmamışdır.

Digər tərəfdən, AR MM faktorinq institutunu tam, hərtərəfli və müfəssəl şəkildə tənzimləmir. Bundan başqa, faktorinqlə bağlı ölkəmizdə mövcud qanunvericilik normaları inkişaf etmiş dövlətlərin qabaqcıl və mütərəqqi qanunvericilik təcrübəsini nəzərə almır, halbuki, yalnız belə zəngin təcrübələr nəzərə alınmaqla AR-in faktorinq barədə qanunvericiliyini təkmilləşdirmək və inkişaf etdirmək olar. Bu nöqteyi-nəzərdən də, AR-də faktorinqlə bağlı hal-hazırda yeganə qüvvədə olan qanunvericilik müddəaları kimi AR MM-in faktorinqin hüquqi tənzimlənməsinə həsr etdiyi normalarının hərtərəfli təhlil olunması günün tələbləri baxımından ciddi əhəmiyyət kəsb edir. Bu səbəblə də, hesab edirik ki,

[4] Emek Uğur. Kamu iktisadi teşebbüslerinde yeni finansman yöntemlerinin uygulanabilirliği (Finansal kiralama, Factoring). DPT yayını, Ankara 1994, s. 94.
[5] http://faktoringdernegi.org.tr/gostergeler/dunya_faktoring_pazari (31.01.2014).



yuxarıda qeyd olunanları nəzərə aldıqda, faktorinqlə bağlı elmi tədqiqat işinin aparılmasına, bu mövzunun dərindən öyrənilməsinə və AR qanunvericiliyindəki əlaqədar normaların elmi şərhinə, doktrinal izahı xüsusi aktuallıq kəsb edir.

Dissertasiya işi üçün seçilmiş mövzunun aktuallığı həm də bununla şərtlənir ki, faktorinq institutu Azərbaycan hüquq ədəbiyyatında demək olar ki, tədqiq olunmamışdır. Buna görə də o, tədqiq edilməyən institutlardan biri sayılır. Düzdür, AR MM-in qəbulundan sonra bəzi azərbaycanlı müəlliflər (məsələn, S.S.Allahverdiyev, S.A.Aslanov) faktorinq mövzusu barədə dərslik çərçivəsində, tədris əsəri səviyyəsində yazmış, həmin mövzuya toxunmuşlar, lakin buna baxmayaraq indiyə kimi faktorinq mövzusunun təhlili, bir qayda olaraq epizodik xarakter daşımış və ciddi tədqiqatlar çərçivəsindən kənarda qalmışdır.

Təəssüfləndirici haldır ki, AR MM-in qəbul edilməsindən 15 il keçməsinə baxmayaraq, Azərbaycanda bu günə qədər müasir mülki hüquq nəzəriyyəsində xüsusi olaraq həmin mövzunun kompleks tədqiqinə həsr olunan dissertasiya işi yazılmamışdır.

**Tədqiqatın obyekti.** Mülki hüquqda faktorinqin hüquqi aspektləri mövzusu dissertasiya tədqiqatının obyekti kimi seçilmişdir.

**Tədqiqatın predmeti.** Tədqiq olunan dissertasiya işinin predmetini faktorinq kimi vacib sahibkarlıq fəaliyyətinin mülki-hüquqi aspektləri təşkil edir.

**Tədqiqatın məqsədi.** Dissertasiya işinin məqsədi faktorinqin mülki-hüquqi aspektlərinə aydınlıq gətirməkdən və onları hərtərəfli işıqlandırmaqdan, faktorinqin tənzimlənməsinə həsr olunan hüquq normalarını kompleks şəkildə təhlil etməkdən, faktorinqi xarakterizə edən cəhətləri (xarakterik əlamətləri) və faktorinq müqaviləsinin mülki-hüquqi müqavilələr sistemində tutduğu yeri, eləcə də onun elementlərini müəyyənləşdirməkdən, faktorinq barədə qanunvericiliyi inkişaf etdirmək və təkmilləşdirmək məqsədilə qanunvericiliyə elmi cəhətdən əsaslandırılmış təkliflər (tövsiyələr) verməkdən, habelə bir sıra xarici ölkələrin qanunvericiliyini müqayisəli olaraq tədqiq etməkdən (bunun AR qanunvericiliyinin faktorinqlə bağlı mövcud hüquqi vəziyyətinin daha aydın bir şəkildə müəyyən edilməsi və onun təkmilləşdirilməsi baxımından faydalı ola biləcəyi nəzərə alınaraq) ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olunması istiqamətində dissertasiya işində aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:

- Faktorinqin yaranması və inkişaf tarixi, bu istiqamətdə hüquq ədəbiyyatlarında mövcud fikir müxtəlifliklərinin tədqiqi;
- Faktorinq və faktorinq əməliyyatı anlayışının müəyyən edilməsi, müxtəlif dövlətlərin, o cümlədən AR-in mülki qanunvericiliyində faktorinqə verilən anlayışın iqtisadi, sosial və hüquqi əhəmiyyətinin araşdırılması;
- Faktorinqin yerinə yetirdiyi funksiyaların tədqiq edilməsi, həmin funksiyaların müsbət və mənfi cəhətlərinin üzə çıxarılması;
- Faktorinqin müxtəlif meyarlara görə təsnifatının aparılması, beynəlxalq və dövlətdaxili qanunvericilikdə faktorinqin hansı növlərinin tətbiqinin

müəyyənləşdirilməsi;

- Faktorinq müqaviləsinin subyekt tərkibi, müqavilə tərəflərinin hüquq və vəzifələrinin müəyyən edilməsi, bu sahədə nəzəri və praktiki problemlərin işıqlandırılması;

- Faktorinq müqaviləsinin özünəməxsus spesifik xüsusiyyətlərinin və hüquqi təbiətinin tədqiqi;

- Faktorinq müqaviləsinin hüquqi təbiəti ilə bağlı fikir müxtəlifliklərinin müqayisəli-hüquqi təhlili;

- Beynəlxalq hüquqi sənədlərdə faktorinqin yeri və hüquqi tənzimlənməsi;

- Respublikamızda və xarici ölkələrdə faktorinqin mülki qanunvericilikdə təsbit olunması, xarakterik xüsusiyyətlərinin tədqiqi.

**Tədqiqat işinin metodoloji əsası.** Tədqiqatın metodoloji əsasını hüquq elmində hamılıqla qəbul edilmiş ümum-nəzəri və xüsusi elmi metodlar təşkil edir. Tədqiqat işində xüsusilə müqayisəli, konkret-sosioloji, formal-məntiqi və digər elmi metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri əsasları.** Dissertasiya işini hazırlayarkən müəllif Aslanov S.A., Allahverdiyev S.S., Süleymanlı S.S., Medvedev D.A., Efimova L.Q., Novoselova L.A., Klapper L., Kocaman A.B., Papadimitriou Dimitri B, Pavlodski Y.A., Filllips Ronni, Şvayzer Paola Pisar, Samuel Filcrik Vilyam, Suxanov Y.A., Vitriyanski V.V., A.S., Şevçenko Y.Y., Vasilyevskaya L.Y., Pavlov A.A., Aqafonova N.N., Vilkova N.Q., Jalinskaya-Repuxin A.A., Şmittqoff K.M., Yudenkov A.P., Vrey Randall, Funk Y.İ., Xvaley V.V., Raysman A.F., Toroslu V.M. və digər tanınmış alimlərin faktorinq barədə elmi əsərlərinə istinad etmişdir. Bundan başqa, tədqiqat aparılarkən Beynəlxalq Faktorinq Haqqında Ottava Konvensiyasına da geniş şəkildə yer verilmişdir.

**Dissertasiya işinin elmi yeniliyi** ondan ibarətdir ki, bu, AR-də faktorinqin mülki-hüquqi aspektlərinin kompleks tədqiqinə həsr olunmuş ilk tədqiqat işidir. AR-in hazırda qüvvədə olan yeni Mülki Məcəlləsinin qəbulundan və qüvvəyə minməsindən sonra kifayət qədər aktual olan faktorinq mövzusu dissertasiya səviyyəsində ilk dəfə araşdırılmışdır. Azərbaycanda müəlliflərdən S.S.Allahverdiyev yazdığı mülki hüquq dərsliyində, eləcə də S.X.Aslanov sahibkarlıq hüququna dair dərs vəsaitində bu mövzuya toxunmuşlar. Lakin, dərslik və dərs vəsaiti çərçivəsində faktorinq mövzusunu hərtərəfli araşdırmaq mümkün deyildir.

Tədqiqatın elmi yeniliyini özündə ehtiva edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunmuşdur:

- Faktorinqin normativ-hüquqi bazası AR-in hal-hazırda qüvvədə olan mövcud Mülki Məcəlləsinin 29-cu fəslinin 7-ci paraqrafında ifadə olunan hüquq normalarından ibarətdir;

- Mülki hüquqi müqavilələr sistemində faktorinq müqaviləsini AR-in mülki qanunvericiliyi alqı-satqı müqaviləsinin növü kimi deyil, müstəqil müqavilə kimi tanımalıdır;



- Faktorinq müqaviləsinin tərəflərindən biri olan faktorun digər (qarşı) tərəfə «müştəriyə» əlavə maliyyə xidmətləri göstərməsi faktorinq müqaviləsinin fakültativ yox, məcburi elementi olmalıdır ki, bununla bizim ölkə qanunvericiliyi Beynəlxalq Faktorinq Haqqında Ottava Konvensiyasının müddəasını qəbul etmiş olardı;

- Faktorinq müqaviləsi, alqı-satqı, borc, kredit və digər müqavilələrin elementlərini özündə birləşdirsə də, ona (faktorinq müqaviləsinə) nə alqı-satqı, borc və kredit müqavilələrinin, nə də ki, Azərbaycan hüququ baxımından qarışıq müqavilələrin bir növü kimi yanaşılmamalıdır;

- Beynəlxalq Faktorinq Haqqında Ottava Konvensiyasının müəyyən etdiyi qayda və prinsiplər AR MM-in faktorinq münasibətlərini tənzimləyən normalarının əsasını təşkil edir;

- AR Beynəlxalq Faktorinq Haqqında Ottava Konvensiyasının iştirakçısı olmamasına baxmayaraq, onun Mülki Məcəlləsinin faktorinq münasibətlərini tənzimləyən normaları təfsir olunarkən həmin konvensiyasının prinsipial əhəmiyyətə malik olan normaları nəzərə alınmışdır;

- Tərəflər adətən ancaq sahibkarlardan, kommersiya təşkilatlarından və fərdi sahibkarlardan ibarət olduğuna görə, faktorinq müqaviləsi sahibkarlıq əqdi kimi tanınmalıdır;

- Azərbaycanda iqtisadi-ticarət praktikasında faktorinq müqaviləsi geniş səviyyədə tətbiq olunmalıdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, o, faktorinq institutu haqqında elmi-nəzəri biliklər verir. Bu biliklər öz növbəsində, mülki hüquq sahəsində mütəxəssis alimlərin və tədqiqatçı-müəlliflərin elmi dünya görüşünün artırılmasını, eləcə də onların nəzəri təfəkkürünün dərinləşməsini təmin edir. Həmin bilik və məlumatlar əsasında həm də faktorinq barədə yeni monoqrafiya əsərləri yazıldığı hallarda istifadə oluna bilər. Faktorinq barədə elmi-nəzəri biliklər digər tərəfdən, qanunvericiliyin inkişafına və təkmilləşdirilməsinə yönələn təklif və tövsiyələrin işlənib hazırlanmasına kömək edir.

Tədqiqatın həm də praktiki əhəmiyyəti vardır. Belə ki, dissertasiya tədqiqatı nəticəsində əldə edilən elmi biliklər zəminində işlənib hazırlanmış təklif və tövsiyələr faktorinq münasibətlərini tənzimləyən hüquqi normaların praktikada düzgün tətbiqinə təsir göstərə bilər. Dissertasiya işinin materialları, müddəaları və nəticələri AR-də faktorinq münasibətlərinin inkişafı və təkmilləşdirilməsi istiqamətində gələcək elmi-praktik araşdırmalar üçün də əsas ola bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Mülki hüquq" kafedrasında yerinə yetirilmiş, müzakirə edilərək əsas müdafiəyə tövsiyə olunmuşdur. Onun əsas müddəa və nəticələri elmi konfranslarda və digər elmi tədbirlərdə şərh olunmuş, habelə AR və Ukraynanın nüfuzlu jurnallarında elmi məqalə və tezislər şəklində dərc edilmişdir.

**Dissertasiya işinin strukturu** giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə çıxarılan əsas yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası haqqında məlumat verilir.

**I Fəsil "Faktorinqin formalaşması və inkişaf tarixi, funksiyaları və təsnifatı" adlanmaqla dörd paraqrafı özündə birləşdirir.**

**Birinci paraqrafda** faktorinqin formalaşması və inkişaf tarixi məsələsinə toxunulur. Faktorinq elə bir fəaliyyətdir ki, bu fəaliyyətə görə banklar və digər kredit təşkilatları, habelə bu cür fəaliyyəti həyata keçirməyə icazəsi olan başqa kommersiya təşkilatları müştərinin üçüncü şəxsə mal satmasından, işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbini (pul almaq hüququnu) satın alır və bu yolla maliyyələşdirir.

Faktorinqin yaranma tarixi barəsində istər hüquq, istərsə də iqtisadiyyat elminə dair əsərlərdə faktorinq əməliyyatının ilk dəfə olaraq nə vaxt və harada aparıldığı məsələsində tədqiqatçıların mövqeləri üst-üstə düşmür. Belə ki, faktorinq əməliyyatının tarixini araşdıran müəlliflər həmin əməliyyatın yaranma və inkişaf tarixi barəsində bir-birindən fərqli fikirlər irəli sürürlər. Xarici hüquq doktrinasında faktorinqin mənşəyi barədə bir neçə nəzəriyyə irəli sürülmüşdür ki, həmin nəzəriyyələr faktorinqin yaranma və inkişaf tarixini müxtəlif cür izah edir.

Hüquq ədəbiyyatında bəzi müəlliflər tərəfindən irəli sürülən belə bir fikrə təsadüf olunur ki, faktorinq əməliyyatının minillik və çoxəsrlik inkişaf tarixi vardır. Onların fikrincə, faktorinqin əlamət və izlərinə hələ Mesopotamiya kimi qədim dövlətdə (o cümlədən, qədim Babilistanda) rast gəlmək mümkündür. Bu dövlətdə bizim eradan əvvəl 3-cü minillikdə ticarətlə məşğul olan şəxslər öz aralarında onlara sərf edən maliyyə əməliyyatları aparırdılar ki, həmin əməliyyat müasir faktorinqə oxşayırdı[6]. XIX əsrin birinci yarısında mal satışı ilə məşğul olan ticarət şirkətlərinin həmin malları istehsal edən şəxslərə göstərdikləri kommersiya xarakterli maliyyə xidməti göstərmək praktikasından başlayır. Bazar münasibətlərinin təşəkkül tapdığı və sürətlə inkişaf etdiyi dövrlərdə faktor adlı komisyon (ticarət) agentləri sahibkarlıq sahəsində, xüsusən də daxili və xarici ticarətdə mühüm rol oynamışlar ki, onların yerinə yetirdikləri funksiyaya yalnız istehsalçıların hazırladıqları malları satmaq yox, həm də həmin istehsalçılara pul avansı vermək və istehsalı kreditləşdirmək daxil idi.

Kervin J. Richard qeyd edir ki, faktorların tədricən Böyük Britaniya istehsalçılarının mallarını Amerika bazarlarında satmaqla məşğul olan ticarət agenti və vasitəçisi rolunu oynamaqdan imtina etməsi, habelə müvafiq əməliyyatı maliyyələşdirməsi (mal istehsalçılarının malı satın alan şəxslərdən pul almaq

[6] Papadimitriou Dimitri B., Phillips Ronnie J., Wray Randall L. Community-based factoring companies and small business lending. Working Paper № 108. April 1994, p. 11 http://ssrn.com/abstract=133148 (19.02.2013).



hüququnu güzəşt etməyin hesabına istehsalçıları maliyyələşdirmə) kommersiya fəaliyyətinin müstəqil növü kimi faktorinqin yaranmasının əsas səbəbi olmuşdur[7].

Digər tərəfdən qeyd etməliyik ki, faktorinqin yaranma və inkişaf tarixi haqqında ən çox qəbul edilən fikir, onun Amerika hüququndan Avropa hüququna keçməsi şəklindədir[8]. Göründüyü kimi, hüquq ədəbiyyatında faktorinqin tarixi mənşəyi, onun əmələ gəlmə dövrü barəsində tam yekdil fikir yoxdur. Bununla bağlı onu da qeyd edək ki, əslində tədqiqatçıların faktorinqin tarixi mənşəyi və inkişafı barədə irəli sürdükləri fikirlərin hamısının özünə görə müəyyən əhəmiyyət və əsası olub, bir-birləri ilə əsaslı şəkildə ziddiyyət təşkil etmirlər. Əksinə, müəlliflər tərəfindən irəli sürülən bu fikirlər bir-birlərini tamamlayaraq faktorinqin yaranması və əmələ gəlməsi ilə bağlı tarixi halların qiymətləndirilməsi, eləcə də bu növ hüquqi münasibətlərin mənşə və inkişaf tarixinin təhlil olunması məqsədinə xidmət edir.

Faktorinqin yaranma prosesini xarakterizə edərkən üç əsas məsələyə diqqət yetirmək lazımdır ki, həmin məsələlər faktorinqin əmələ gəlmə və inkişaf tarixini təhlil etmək və qiymətləndirmək baxımından əhəmiyyətlidir. Birinci məsələ faktorinqin transformasiyasına aid olub, onun mənşəyi və inkişaf tarixinin qiymətləndirilməsində vacib rol oynayır.

Faktorinqin yaranma prosesini xarakterizə edərkən nəzərə alınmalı olan ikinci məsələ həmin prosesin mürəkkəb xarakterə malik olmasından və özündə üç tarixi mərhələni birləşdirməsindən ibarətdir. Başqa sözlə, faktorinqin yaranma və inkişaf tarixində üç mərhələ fərqləndirilir ki, bu mərhələlərin hər birində həmin əməliyyat transformasiyaya uğramışdır və belə transformasiya Böyük Britaniya və ABŞ-ın tarixi və iqtisadi inkişaf xüsusiyyətləri ilə şərtlənmişdir.

Faktorinqin yaranma prosesini xarakterizə edərkən diqqət yetirilməli olan üçüncü məsələ ondan ibarətdir ki, faktorinqin ilkin və sonrakı inkişafı, habelə onun ayrı-ayrı növlərinin yaranması bu və ya digər dövlətlərin iqtisadi-təsərrüfat həyatı ilə bağlı olmuşdur. Belə ki, əgər faktorinqin ilkin inkişafı yalnız Amerika iqtisadiyyatının xüsusiyyətləri ilə şərtlənmişdirsə, onun sonrakı inkişafı XX əsrin ortalarından başlayaraq Qərbi Avropa ölkələrinin iqtisadiyyatı ilə bağlı olmuşdur[9]. Bir az əvvəldə qeyd etdiyimiz kimi, XIX əsrin ikinci yarısında faktorinq fəaliyyəti Şimali Amerikada sürətlə inkişaf edərək XX əsrin 40-50-ci illərində əsasən iri banklar tərəfindən həyata keçirilən əməliyyat növü kimi daha geniş yayılmışdır.

**İkinci paraqrafda** faktorinq anlayışı izah olunur. Factor termini, latın dilindəki "bir işi etmək", "bir hərəkəti icra etmək" mənasına gələn "facere" sözündən əmələ gəlmişdir. Bu nöqteyi-nəzərdən də hüquqi doktrinada "factoring"i, bir başqası üçün müəyyən bir işin icra edilməsi şəklində ifadə edənlər də vardır[10].

[7] Kerwin Richard J. Factoring in Mexico // The Secured Lender. Nov/Dec 1994; 50; 6, p. 32.
[8] Wiegang Wolfgang. The reseption of American Law in Europe // The American Journal of Comparative Law. Vol. 39. № 2 (Spring, 1991), p. 236-238.
[9] The history of factoring. Introductory Discussion. The Bureau of National Affairs, Inc. 2011, pp. 1-3.
[10] Kocaman, Arif B., Factoring İsleminin Hukuki Niteliği, Banka ve Ticaret Hukuku Arastırma Enstitusu Yayını, Ankara 1992, s. 16.

Anglo-sakson hüququnda müəlliflər "factoru" ticarət agenti və ya komisyoncu kimi təqdim edirlər və "factoring" Amerikan hüququnda qısamüddətli aktivlərin borclularına ödənişin faktora edilməsinin lazım gəldiyinə dair bildiriş verilməklə geriyə tələb hüququ olmadan əvəz müqabilində faktora özgəninkiləşdirilməsi əməliyyatı şəklində tərif edilir [11]. AR MM-in 655.1 maddəsində də faktorinqin qanuni anlayışı belə verilmişdir: "Faktorinq pul tələbinin güzəşt edilməsi müqabilində maliyyələşdirmədir. Faktorinq müqaviləsinə görə bir tərəf (faktor) üçüncü şəxs (borclu) barəsində müştərinin (kreditorun) üçüncü şəxsə mal verməsindən, işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbinin hesabına digər tərəfə (müştəriyə) pul vəsaiti verir və ya verməyi öhdəsinə götürür, müştəri isə bu pul tələbini faktora güzəşt edir və ya güzəşt etməyi öhdəsinə götürür".

Göründüyü kimi, həm qanunvericilikdə, həm də elmi-tədris ədəbiyyatlarında «faktorinq» anlayışından müxtəlif mənalar ifadə edən çox aspektli bir anlayış kimi istifadə olunur. Bir mənada, faktorinq fəaliyyəti sahibkarlıq fəaliyyətidir. Sahibkarlıq fəaliyyəti, müstəqil şəkildə, davamlı iqtisadi mənfəət əldə etmək məqsədilə cəmiyyətin iqtisadi sahəsində həyata keçirilən fəaliyyətdir.

Faktorinq təkcə məzmun baxımından deyil, həm də subyekt tərkibinə görə sahibkarlıq fəaliyyətinin növü kimi xarakterizə olunur. Belə ki, faktorinq sahibkar və faktor arasındakı qarşılıqlı münasibətlərin sistemidir ki, bu sistemdə əksər hallarda faktor rolunda banklar çıxış edirlər. Bankların həyata keçirdikləri əməliyyat sahibkarlıq fəaliyyəti hesab edilir. Təsadüfi deyildir ki, Banklar haqqında 16 yanvar 2004-cü il tarixli AR Qanununun 32-ci maddəsi faktorinqi bankların məşğul ola bildikləri fəaliyyət növlərinə aid edir, bunlara əsasən deyilənlərdən belə nəticəyə gələ bilərik ki, faktorinq fəaliyyətinin subyektləri yalnız sahibkarlardan ibarətdir.

İkinci mənada faktorinq dedikdə, maliyyə xidməti başa düşülür ki, bu xidmət faktor tərəfindən müştərinin mühasibat uçotunun aparılmasında, hesabların ödənişə təqdim olunmasında, ödənişin inkassasiya edilməsində, satılan malların pulunun vaxtından əvvəl ödənilməsində və debitor borcu üzrə digər maliyyə xidmətlərinin göstərilməsində ifadə oluna bilər[12].

Üçüncü mənada faktorinq dedikdə, kommersiya xarakterli elə maliyyə əməliyyatı başa düşülür ki, bu əməliyyatın aparılması nəticəsində faktorinq fəaliyyəti sahəsində kompleks münasibətlər yaranır. Bu nöqteyi-nəzərdən faktorinq hər şeydən əvvəl müştəriyə kredit verilməsinə yönələn maliyyə əməliyyatı olub, kommersiya banklarının həyata keçirdikləri fəaliyyətin tərkib hissəsi sayılır. Bu əməliyyatın köməyi ilə müştərinin müəssisəsi ahəngdar və fasiləsiz işləyir, onun istehsalatı inkişaf edir və dövriyyəsi artır.

Dördüncü mənada faktorinq dedikdə, əqdin ən əsas növü olan müqavilə

[11] Emen İsmail, Factoring, Mali Dunyamızın Yeni Kavramları: Factoring, Leasing, Forfaiting, Futures ve Options, İstanbul Mulkiyeliler Vakfı, İstanbul 1992, s. 75.
[12] Fiordelisi Franco. Molyneux Philip. Efficiency in the factoring industry// Applied Economics. 2004. № 36, p. 947-948.



başa düşülür ki, bu müqavilə obyektini müştərinin üçüncü şəxsə mal verməsindən, işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbini faktora güzəşt etməsi təşkil edir. Başqa sözlə, faktorinq müqaviləsinə görə, faktor müştərinin debitor borclarını (ingiliscə «debt» - borc mənasına gəlir) satın alır. Debitor borcları dedikdə müştərinin (müəssisənin) göndərdiyi mallar, göstərdiyi xidmətlər və ya gördüyü işlər üçün debitorların (borclu üçüncü şəxslərin) ona (yəni müştəriyə) verəcəyi borcların məbləği başa düşülür[13] ki, bu məbləğ mühasibat sənədlərində əks olunan hesab üzrə borcları ifadə edir.

Faktorinq anlayışının bu kimi çox mənalarda (fəaliyyət, əməliyyat, əqd və s. mənalarda) işlədilməsi onun aydın və dəqiq şəkildə açıqlanmasına və ona qanuni anlayış verilərək tənzimlənilməsində çətinliklər törədir. Bununla bağlı olaraq hesab edirik ki, faktorinqə dair tədqiqat əsərlərində, xüsusən də hüquq elminə dair əsərlərdə «faktorinq» kimi vahid anlayışla ifadə olunan eyni bir hadisənin ayrı-ayrı aspektlərinə münasibətdə müxtəlif terminlərdən istifadə etmək daha məqsədəuyğundur. Məsələyə bu cür yanaşma həm faktorinqin mahiyyətinə aydınlıq gətirmək, həm də həmin hadisənin ifadə etdiyi mənaları və onun müxtəlif aspektlərini düzgün başa düşmək baxımından əhəmiyyətlidir.

**Üçüncü paraqrafda** faktorinqin mahiyyətinə aydınlıq gətirmək üçün onun yerinə yetirdiyi funksiyalar təhlil edilmişdir. Faktorinqin əsas funksiyaları faktorinqin mahiyyətini və onun əlamətlərini müəyyənləşdirən funksiyalar olub, onun hüquqi xarakteristikasının müəyyən edilməsinə imkan verir.

Faktorinqin hamılıqla qəbul edilən başlıca funksiyaları aşağıdakılardan ibarətdir: maliyyələşdirmə funksiyası (tələbin vaxtından əvvəl ödənilməsini təmin etməklə müştərini maliyyələşdirmək); xidmət funksiyası; təminat (delkrede) funksiyası.

Faktorinqin birinci əsas məqsədi və funksiyası müştərini (müəssisəni) maliyyələşdirməkdən ibarətdir ki, bu funksiya özünü faktor tərəfindən müştəriyə onun borcluya qarşı olan tələbinin vaxtından əvvəl ödənilməsi şəklində təzahür edir. Belə ki, üçüncü şəxsə mal verən (göndərən), üçüncü şəxs üçün iş görən və ya üçüncü şəxsə xidmət göstərən müştəri üçüncü şəxsdən verilmiş (göndərilmiş) malın, görülmüş işin və ya göstərilmiş xidmətin pulunun ödəniş müddətinin çatmasını gözləmədən faktordan müəyyən məbləğdə pul alır ki, bu da onu kredit əməliyyatına yaxınlaşdırır. Kreditləşdirmə formasında belə maliyyələşdirmə əməliyyatı faktorinqin çoxsaylı üstünlükləri arasında əsas və başlıca cəhət hesab edilir. Məhz müasir dövrdə faktorinqin bu cəhəti onun ticarət sahəsində kifayət dərəcədə geniş surətdə istifadə olunmasının ən əsas səbəbidir[14]. Çünki müştəri qismində çıxış edən şirkət və digər iqtisadi təşəbbüskarlar, öz fəaliyyətlərində meydana gələn nağd vəsaitə olan ehtiyaclarını məhz faktorinqin bu funksiyası

[13] Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ., Əlizadə A.Ş., Orucov Ş.O. Tələb, tələbat, bazar və marketinq (iqtisadi məlumat kitabı). Bakı: Azərnəşr, 1998, s. 39.
[14] Ittleson Anthony H. Factoring: opening new routes in international trade // Management Review, September 1978, p. 49-50.

sayəsində, həm də, kənar mənbələr hesabına deyil, özünün tələb hüquqları hesabına qarşılamaq imkanı əldə edirlər.

Faktorinq münasibətləri çərçivəsində faktor, öz müştərisini iki üsulla maliyyələşdirir: ilkin ödəniş (avans) üsulu və endirim (iskont) üsulu ilə.

Beynəlxalq təcrübədə ən çox ilkin ödəniş (avans) üsulundan istifadə olunur. Bu üsul, müştərinin tələb hüququna dair olan sənədlərinin faktora müvafiq qaydada (tələbin güzəşti və faktura və malın təslim edildiyinə və ya göndərildiyinə, malın keyfiyyət nəzarətinə dair və s. bu kimi sənəd və qəbzlərini verməklə) verilməsi müqabilində tələb hüququnun ümumi məbləğinin 80 %-i həcmindəki hissəsini müştəriyə bəri başdan, yəni tələbin ödəniş vaxtı çatmadan nağd qaydada ödənilməsi şəkildə həyata keçirilir. Həyata keçirilən bu ödənişə görə, "faktorinq faizi" adı altında müştəri ödənilən məbləğin günündən asılı olaraq (yəni ödənişin nə qədər əvvəlcədən edilməsindən asılı olaraq) 2% ilə 2,5% arasında dəyişən bir həcmdə faiz ödəməli olurlar. Bu şəkildə müştərinin nağd vəsaitə olan ehtiyacı qarşılanmış olur. Daha sonra tələb, ödəniş vaxtında borclu tərəfindən faktora icra edildikdə, faktor əldə edilən bu məbləğdən sözü gedən faiz, komisyon muzdu və başdan avans kimi verdiyi kredit məbləğini çıxaraq geriyə qalan hissəni müştəriyə ödəyir.

Endirim üsulu faktorinq əməliyyatlarında isə, faktor, tam tələb həcmindən komisyon, məsrəf və faiz məbləğini çıxaraq geriyə qalan tələb həcminin hamısını bəri başdan müştəriyə ödəyir. Bu cür faktorinq əməliyyatı təcürbədə olduqca az istifadə olunur[15].

Faktorun müştərini maliyyələşdirməsi nəticəsində müştərinin istehsalında fasiləsizlik təmin olunur, onun aktivlərinin likvidliyi, habelə kapitalının dövriyyəsi və bu yolla həyata keçirdiyi sahibkarlıq fəaliyyətinin rentabelliyi artır. Bununla müştəriyə faktordan aldığı pul vəsaitini öz ticarət fəaliyyətinə yönəltmək və vaxtda udmaq, kapitaldan daha effektiv istifadə etmək imkanı meydana gəlmiş olur.

Faktorinqin ikinci əsas funksiyası müştəriyə göstərilən xidmət funksiyasıdır. Bu funksiya, faktorinq müqavilələrində nəzərdə tutulan öhdəliklərin çeşidindən asılı olaraq müxtəlif mahiyyətlərdə görünsə də, onlar üçün ümumi xarakterik xüsusiyyət ondan ibarətdir ki, bu funksiya ilə bağlı olaraq bütün hallarda faktor ona güzəşt edilən tələbin ödənilməsini təmin etmək üçün lazımi iş və fəaliyyətləri həyata keçirir.

Faktorinqin servis funksiyasının mahiyyəti ondan ibarətdir ki, faktor öz üzərinə müştəriyə müxtəlif xarakterli lazımi xidmətlər göstərmək vəzifəsi götürə bilər. Belə ki, faktor müştərinin mühasibat əməliyyatlarını (mühasibat uçotunu) aparmaq, ödənişi inkasso etmək və digər maliyyə xidmətləri göstərə bilər ki, bu, onun öz üzərinə servis funksiyası götürməsini ifadə edir[16]. Faktor həm kompleks servis xidməti, həm

[15] Bakker Marie H. R., Klapper Leora, Udell Gregory F. Financing small and medium-size enterprises with factoring: global growth and its potential in Eastern Europe. Publisher: The World Bank. Edition I. Warsaw 2004, p. 28, http://ssrn.com/abstract=610386 (19.02.2013)

[16] Dimitrova Emilia P. The Economic Nature of Factoring and its Legal Manifestation in the Bulgarian Legislation and the Convention on International Factoring // ACTA Univesitatis Danubius. Vol. VII. no 1/2011, p. 56.



də müəyyən xidmətlər göstərə bilər ki, bu, faktorinqin növündən asılıdır.

Deyilənlərdən biz görürük ki, faktorinq iki əsas funksiya yerinə yetirir: birincisi, faktorinq kredit-maliyyə əməliyyatı rolunu oynayır, ikincisi, xidmət funksiyasını yerinə yetirir. Bunlara əlavə olaraq, fakotrinq müqaviləsində təminat funksiyası da nəzərdə tutulduqda, bu cür faktorinqlər tam faktorinq olaraq adlandırılır.

**Dördüncü paraqrafda** isə, öz hüquqi təbiətinə görə kifayət qədər mürəkkəb hüquqi münasibət olan faktorinqin növlərinə aydınlıq gətirilmişdir. Faktorinqin növləri, faktorinq münasibətlərinə tətbiq olunmalı qaydaların düzgün müəyyən edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buna görə də, hüquq elmində, xüsusən də mülki hüquq doktrinasında faktorinqin ayrı-ayrı meyarlara əsasən hüquqi təsnifi verilir və onun müxtəlif növləri fərqləndirilir.

Xarici ölkələrin real əmlak dövriyyəsində, eləcə də beynəlxalq ticarət praktikasında faktorinqin kifayət qədər müxtəlif növləri tətbiq edildiyinə görə onların bütövlükdə sistemini vahid təsnifatla əhatə etmək qeyri-mümkündür.

Faktorinqin çoxsaylı növlərindən istifadə olunması həm də imkan vermir ki, həmin növləri bir təsnifat meyarı əsasında ayırmaq mümkün olsun. Buna görə də, faktorinqin növlərinin çoxmeyarlı təsnifat əsasında sistemləşdirilməsi üstünlüyə malik olub, daha məqsədəuyğundur: çoxmeyarlı təsnifat həm də faktorinqin xarakterik əlamətlərini, hüquqi hadisə kimi onun başlıca cəhətlərini müəyyənləşdirməyə imkan verir.

Xarici elementin iştirakı kimi meyara görə faktorinqin daxili və beynəlxalq faktorinq kimi növləri fərqləndirilir ki, xarici element faktorinq münasibətlərinin subyekt tərkibinə - iştirakçılarına aiddir. Faktorinq münasibətlərində faktor, müştəri (kreditor) və üçüncü şəxs (borclu) kimi üç qrup subyekt iştirak edir. Əgər bu subyektlər öz fəaliyyətlərini eyni bir dövlətin ərazisində həyata keçirərlərsə və həmin dövlətin şəxsləri olarlarsa, buna daxili faktorinq deyilir. Çünki bu cür faktorinq münasibətində xaricilik ünsürü (xarici element) mövcud olmur.

Beynəlxalq faktorinq dedikdə, elə münasibət başa düşülür ki, bu münasibətdə iştirak edən subyektlərdən biri başqa ölkə ərazisində olur və fəaliyyət göstərir. Faktorinq münasibəti iştirakçısı olan subyektlərdən birinin məhz başqa ölkə ərazisində fəaliyyət göstərməsi həmin münasibətdə xarici element olmasını şərtləndirir və bu səbəbdən faktorinq beynəlxalq faktorinq sayılır. Bir qayda olaraq, müştəri və faktorun müxtəlif dövlətlərdə olması faktına görə faktorinq beynəlxalq faktorinq hesab edilir. Faktorinq həm də o halda beynəlxalq faktorinq kimi tanınır ki, müştəri və faktor eyni bir dövlətin, borclu (üçüncü şəxs) isə başqa dövlətin subyekti olsun[17]. Beynəlxalq faktorinq müasir ixrac (export) ticarətində mühüm əhəmiyyət kəsb edərək xaricə mal ixrac edən şəxsin işgüzar əməliyyatlar aparması gedişində həmin malın pulunun alınmasını asanlaşdırır. Belə ki, ixrac əqdlərinin böyük əksəriyyətində ixrac əməliyyatı

[17] Çeker Mustafa. Uluslararası factoring sözleşmeleri ve karşılaşılan bazı hukuki sorunlar // Banka ve Ticaret Hukuku Dergisi. Cilt XVII. Sayı 4 (Aralık 1994), s. 117.

aparan kreditor üçün başqa ölkədə olan borcludan öhdəliyin məcburi qaydada alınmasının çox çətinliyi ilə bağlı riski faktorinq demək olar ki, aradan qaldırır[18].

Üçüncü şəxsin (borclunun) pul tələbinin güzəşti barədə məlumatı olması meyarına görə faktorinqin açıq və gizli faktorinq kimi növləri fərqləndirilir ki, həmin növləri xarakterizə edən əsas əlamətlərə və vacib parametrlərə hüquq ədəbiyyatında aydınlıq gətirilmişdir. İqtisadi baxımdan bir-birinə yaxın olsalar da özlərinin hüquqi təbiəti nöqteyi-nəzərindən onlar fərqlənir. Açıq faktorinq elə bir münasibətdir ki, bu münasibətə görə müştərinin (kreditorun) üçüncü şəxsə (borcluya) mal verməsindən, işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbinin faktora güzəşt edilməsi barədə həmin şəxsə məlumat (bildiriş) verilməlidir və məlumatda faktorun bank rekvizitləri (o cümlədən poçt rekvizitləri) göstərilməlidir. Açıq faktorinq zamanı pul tələbinin güzəşti barəsində borcluya bildiriş tərəflərin razılaşmasından asılı olaraq həm müştəri, həm də faktor tərəfindən göndərilə bilər. Çox vaxt malın göndərilmə sənədində, habelə müştəri tərəfindən üçüncü şəxsə hesab çıxardılarkən tərtib olunan sənədlərdə göstərilir ki, borclu ona göndərilmiş malın (xidmətin və ya işin) pulunu faktora verməklə ödənişi həyata keçirməlidir və bu, pul tələbinin güzəşti barədə müştəri tərəfindən borcluya bildiriş verilməsini, eləcə də açıq faktorinq münasibətlərinin yaranmasını ifadə edir.

Gizli faktorinq dedikdə, elə bir münasibət başa düşülür ki, bu münasibətə görə pul tələbinin müştəridən faktora güzəşt edilməsi barədə üçüncü şəxsə (borcluya) bildiriş göndərilmir və bu səbəbdən üçüncü şəxs malın (işin və ya xidmətin) pulunu faktora yox, müştərinin özünə verərək onun qarşısında öhdəliyini icra edir; müştəri öz növbəsində üçüncü şəxsdən aldığı pul məbləğini faktora verir ki, bununla müştəri faktor qarşısında öhdəliyi icra etmiş olur.

Faktor və müştəri arasında münasibətlərin davamlı olmasından asılı olaraq faktorinqin birdəfəlik faktorinq və ya uzunmüddətli faktorinq kimi növləri fərqləndirilir. Birdəfəlik faktorinqə görə faktor müştərinin maliyyələşdirməsini yalnız bir dəfə həyata keçirir və bunun əvəzində o, müştərinin malik olduğu pul tələbini əldə edir. Uzunmüddətli faktorinq isə elə bir əməliyyatdır ki, bu əməliyyata görə faktor müştərinin maliyyələşdirməsini sistematik, müntəzəm surətdə, güzəşt olunan tələb hüququ yaranan hallarda həyata keçirir.

Ödənişin təmin olunması baxımından faktorinq təminatlı və ya təminatsız faktorinq kimi növlərə bölünür.

Təminatlı faktorinqə görə müştəri təminat verir ki, əgər faktora güzəşt edilmiş pul tələbini üçüncü şəxs (borclu) ödəməzsə, onda faktorun hüququ var ki, üçüncü şəxs (borclu) tərəfindən ödənilməmiş məbləğ həcmində müştəriyə tələb irəli sürsün. Faktorinqin bu növünə əsasən, ödəniş qabiliyyətsizliyinə görə üçüncü şəxs (borclu) ödənişi həyata keçirməyərək pul məbləğini ödəmədikdə, həmin pul məbləğini müştəri faktora ödəməlidir.

[18] Reisman Albert F. A uniform international law: financing and factoring of transnational accounts receivable // The Secured Lender. Nov/Dec 1992, p. 12.



Təminatsız faktorinqə görə müştəri üçüncü şəxs (borclu) tərəfindən faktora pul məbləğinin ödənilməsinə təminat vermir və bu səbəbdən həmin məbləğin ödənilməməsi riski faktorun üzərinə düşür. Başqa sözlə, əgər müştəri faktor qarşısında üçüncü şəxsin (borclunun) ödənişi həyata keçirməməsi üçün məsuliyyət daşımazsa, belə faktorinq təminatsız faktorinq adlanır. Təminatsız faktorinq təminatlı faktorinqdən fərqli olaraq faktora hüquq vermir ki, o, üçüncü şəxs (borclu) pul məbləğini ödəmədiyi halda həmin məbləği müştəridən alsın. Bu səbəbdən hüquq elmində faktorinqin bu növü «reqres hüququ verməyən faktorinq» adlanır.

**II Fəsil "Faktorinq müqaviləsinin mahiyyəti, spesifik xüsusiyyətləri və hüquqi təbiəti" adlanır və iki paraqrafdan ibarətdir.**

**Üç yarımparaqrafdan ibarət birinci paraqrafda** faktorinq müqaviləsinin tərəflərinin hüquqi statusu ayrı-ayrılıqda təhlil edilmişdir.

Faktorinq müqaviləsi "müştəri" ilə "faktor" arasında bağlanır və bu səbəblə də faktorinq münasibətlərinin bütün tərəfləri baxımından deyil, yalnız faktorinq müqaviləsinin tərəfləri olan müştəri" ilə "faktor" baxımından hüquq və öhdəliklər yaradır. Faktorinq müqaviləsi "faktor" və "müştəri" arasında bağlanır və yalnız bunlar baxımından hüquq və öhdəliklərin yaranmasına səbəb olmasına baxmayaraq, üç və bəzən xarici faktorinq əməliyyatları baxımından isə, dörd tərəfli hüquqi münasibətlərin meydana gəlməsinə səbəb olur.

Faktorinq əməliyyatlarına diqqətlə fikir verdikdə görürük ki, faktorinq müqaviləsində "müştəri" tərəf, əslində faktorinq xidmətini alan şəxsdir. Faktorinq müqaviləsində müştəri, müəyyən muzd müqabilində maliyyələşdirmə və məlumat alma xidməti əldə edən tərəfdir. Faktor isə, faktorinq müqaviləsinə görə göstərəcəyi xidmətlər müqabilində müştəri tərəfindən güzəşt edilən tələb hüququ məbləğinin müəyyən bir faizini muzd olaraq almaq hüququnu əldə edən və bu cür işlərlə davamlı məşğul olan tərəfdir. Yəni, öz hüquqi statusuna görə faktor, faktorinq müqaviləsinin əsas tərəflərindən biri kimi, sahibkarlıq (kommersiya) dövriyyəsinin peşəkar iştirakçılarından biridir.

Tərəflər, faktorinq müqaviləsini bağlayarkən ticarət fəaliyyətlərinin həyata keçirilməsi istiqamətində davamlı xarakterli hüquqi münasibətləri təmin etmək məqsədi güdürlər. Bu nöqteyi-nəzərdən də faktorinq müqaviləsi birtipli ümumi müqavilə olub, tərəflərin sahibkarlıq fəaliyyətlərinin həyata keçirilməsi ilə bağlı gələcək müqavilələrin planlamasına imkan təmin edir.

Bütün bu qeyd olunanlardan asanlıqla bu nəticəyə gəlmək mümkündür ki, faktorinq müqaviləsi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı bir müqavilə olduğundan, bu müqavilənin tərəfləri həmişə sahibkarlar olur. Faktorinq münasibətlərində "borclu" və xarici faktorinqdə "müxbir faktor", faktorinq müqaviləsinin tərəfləri olmamaqla birlikdə, faktorinq münasibətlərinin predmeti içərisində yer alırlar. Faktorinq münasibətində "borclu", müştəri tərəfindən güzəşt edilən tələb hüquqlarını meydana gətirən təməl hüquqi münasibətin tərəfi olduğu üçün faktorinq münasibətinin əlaqədar subyekti halına gəlir, "müxbir" ya da

"xaricdəki" faktor isə, faktorinq müqaviləsində faktorun öz öhdəliklərini yerinə yetirilməsini təmin etmək məqsədilə borclunun olduğu yerdəki faktorla bağladığı müqavilə nəticəsində faktorinq münasibətinin subyekti halına gəlmiş olur. Göründüyü kimi, "borclu", faktorinq müqaviləsinin bağlanmasına əsas təşkil edən səbəblərdən biri kimi, "müxbir faktor" isə, faktorinq müqaviləsinin bağlanmasının bir nəticəsi kimi faktorinq münasibətlərinin subyekti halına gəlir.

Mülki qanunvericiliyin faktorinq müqaviləsinə verdiyi leqal anlayışdan bəlli olur ki, müştəriyə pul vəsaiti vermək, başqa sözlə, müştərini maliyyələşdirmək (kreditləşdirmək) faktorun üzərinə düşən əsas vəzifədir[19]. AR-in mülki qanunvericiliyinə görə, müştərini bu cür maliyyələşdirməkdən başqa, faktorun üzərinə müştəriyə əlavə maliyyə xidmətləri göstərmək vəzifəsi də qoyula bilər. Belə ki, faktorun faktorinq üzrə öhdəliklərinə (vəzifələrinə) müştəri üçün mühasibat uçotunun aparılması, habelə müştəriyə güzəşt predmeti olan pul tələbləri ilə bağlı digər maliyyə xidmətlərinin göstərilməsi də daxil ola bilər (MM-nin 655-ci maddəsinin 4-cü bəndi). Göründüyü kimi, qanunvericilikdə faktorun müştəriyə digər xidmətlər göstərməsi, onun əsas deyil, ikinci dərəcəli vəzifəsi kimi təqdim olunmuşdur. Yəni AR MM-in 655-ci maddəsində nəzərdə tutulan müddəalara görə, faktorinq müqaviləsi ilə faktorun üzərinə müştəriyə əlavə xidmətlər göstərmək vəzifəsi qoyula da bilər, qoyulmaya da bilər.

Başqa sözlə, AR MM-in 655-ci maddəsində yer verilən müddəalardan belə bir hüquqi nəticəyə gəlmək olar ki, faktorun pul verməklə müştərini maliyyələşdirməsi (kreditləşdirməsi) faktorinq müqaviləsinin məcburi, faktorun müştəriyə əlavə maliyyə xidmətləri göstərməsi isə, onun ikinci dərəcəli, yəni qeyri-məcburi ünsürüdür. Bu qeyd edilənlərdən asanlıqla başa düşmək olur ki, AR mülki qanunvericiliyi faktorun müştəriyə əlavə maliyyə xidmətləri göstərməsini faktorinq müqaviləsinin mühüm şərti və məcburi elementi kimi nəzərdə tutmur. Bu səbəblə də, faktorinq müqaviləsində faktorun müştərini maliyyələşdirmək vəzifəsi məcburi şərtdir, ancaq faktorinq müqaviləsində nəzərdə tutulmadığı üçün, faktorun müştəriyə əlavə maliyyə xidmətləri göstərmək vəzifəsi yoxdur. Bu cür yanaşma, postsovet ölkələrindəki mülki hüquqa aid əsərlərdə faktorun müştəriyə qarşı pul verməklə göstərdiyi maliyyələşdirmə xidmətindən savayı digər bütün xidmətlərin əlavə maliyyə xidmətləri şəklində hesab olunması şəklindəki geniş yayılmış yanaşma ilə tam üst-üstə düşür[20].

Halbuki, AR MM-də də öz əksini tapmış və postsovet məkanından geniş yayılmış olan bu yanaşma, faktorinq əməliyyatlarının ən çox istifadə edildiyi ölkələrin hüquq sistemlərindəki yanaşma ilə üst-üstə düşmədiyi kimi, Beynəlxalq Faktorinq Haqqında Ottava Konvensiyasının müəyyənləşdirdiyi norma (bu norma Konvensiyanın 1-ci maddəsində ifadə olunmuşdur) ilə də üst-üstə düşmür. Ottava Konvensiyası, əvvəllər də qeyd etdiyimiz kimi, faktorun müştəriyə maliyyələşdirmə

[19] Брагинский М.И., Витрянский В.В. Договорное право. Книга 5. В двух томах. Том 1. Общие положения. - 2-е изд. испр. М., Статут, 2000, с. 541
[20] Гражданское право. Отв. ред. А.Г.Калпина, М., Юрист, 2003, с. 293.



ilə birlikdə digər xidmətlər göstərməsini də faktorinq müqaviləsinin əlaməti və faktorinq münasibətlərinin yaranmasının vacib (məcburi) şərti hesab edir.

Faktorinq müqaviləsinin məzmun anlayışına nəinki faktorun, həmçinin müştərinin də vəzifələri daxildir. Faktorinq müqaviləsi üzrə müştərinin əsas vəzifəsi faktordan aldığı pul vəsaitinin əvəzində və yerinə onun üçüncü şəxsə (borcluya) olan pul tələbini faktora güzəşt etməkdən ibarətdir ki, həmin vəzifə qanunvericilikdə faktorinq müqaviləsinə verilən qanuni anlayışda da öz əksini açıq şəkildə tapmışdır. Müştəri həm mövcud, həm də gələcək pul tələbini güzəşt edə bilər.

Faktorinq müqavilə münasibətləri çərçivəsində müştərinin üzərinə həm də pul tələbinin güzəşti barədə üçüncü şəxsə (borcluya) bildiriş vermək vəzifəsi düşür (AR MM-in 655-ci maddəsinin 2-ci bəndi). Müştərinin belə vəzifə daşıması AR MM-in 657-ci maddəsinin 4-cü bəndindən irəli gəlir. Həmin bənddən həm məlum olur ki, üçüncü şəxsə (borcluya) bildiriş yazılı formada göndərilməlidir, həm də bu yazılı bildiriş vermək səlahiyyəti müştərinin tapşırığı əsasında faktor tərəfindən verilə bilər. Burada tapşırığın verilməsinin hüquqi nəticəsi odur ki, borclu faktor tərəfindən belə bir yazılı bildirişi aldığı andan etibarən artıq müştəriyə ödəniş etməklə faktor qarşısında tələb hüququnu yerinə yetirmək öhdəliyindən azad ola bilməz.

Müştərinin daşıdığı vəzifələrdən biri də, faktor tərəfindən göstərilən maliyyə xidmətlərinin haqqını ödəmək öhdəliyidir. Bununla nəzərdə tutulan müştərinin öhdəliyi, faktorun ona göstərdiyi həm əsas (maliyyələşdirmə), həm də əlavə maliyyə xidmətlərinin əvəzinin ödənilməsi öhdəliyidir. Müştərinin belə vəzifə daşıması bununla bağlıdır ki, faktorinq müqaviləsi əvəzli müqavilədir.

Faktorinq münasibətində (faktorinq əməliyyatında) borclu (üçüncü şəxs) də iştirak edir. Amma onun hüquq və vəzifələri faktorinq müqaviləsinin məzmununa daxil deyildir. Ona görə ki, üçüncü şəxs (borclu) faktorinq müqaviləsinin bağlanmasında iştirak etmir və bu səbəbdən o, müqavilənin tərəfi hesab olunmur. Lakin buna baxmayaraq borclunun (üçüncü şəxsin) hərəkətləri faktorinq müqaviləsinin tərəfləri olan faktor və müştəri üçün müəyyən hüquqi nəticələrə səbəb olur, faktorinq münasibətlərində nəinki faktor və müştəri, həmçinin borclu ilə onlar arasında sıx bağlılıq və əlaqə vardır.

Başqa sözlə, faktorinq müqaviləsinin tərəfi olmamasına baxmayaraq, borclu faktorinq əməliyyatının həyata keçirilməsində faktor və müştəri ilə birlikdə iştirak edir. Buna görə də, borclunun hüquq və vəzifələri faktorinq müqaviləsindən yaranmasa da, faktorin münasibətində onun daşıdığı bu hüquq və vəzifələr həm müştərinin, həm də faktorun hüquq və vəzifələri ilə bilavasitə bağlıdır.

Borclunun əsas vəzifəsi ödənişi faktora həyata keçirməkdən ibarətdir (AR MM-in 657-ci maddəsinin 4-cü bəndi). Belə ki, müştəri borcludan (üçüncü şəxsdən) müəyyən məbləğdə pulu almaq hüququnu (pul tələbini) faktorinq müqaviləsi əsasında faktora güzəşt edir (faktora verir). Bunun nəticəsində faktor borcludan müəyyən məbləğdə pul almaq hüququna malik olur ki, onun bu hüququna borclunun həmin məbləği faktora ödəmək, yəni ödənişi faktor üçün

həyata keçirmək vəzifəsi meydana gəlir.

Borclunun öhdəliyini meydana gətirən hüquqi səbəb faktorinq müqaviləsi deyil, borclu ilə müştəri arasında olan müqavilə münasibətidir. Burada borclu baxımından faktorinq müqaviləsinin hüquqi funksiyası ondan ibarətdir ki, borclu bu öhdəliyi artıq müştəriyə deyil, faktora ödəməli olur və bu baxımdan da, bir az aşağıda da görüləcəyi kimi, borclu üçün heç bir əlavə yük meydana gəlmir.

Borclunun ödənişi faktora etmək öhdəliyi yalnız o halda məcburi xarakter daşıya bilər ki, müştəridən və ya müştərinin tapşırığı ilə faktordan pul tələbinin güzəşti barədə yazılı bildiriş alsın. Belə bir bildiriş aldıqda, borclunun üzərinə ödənişi faktora həyata keçirmək vəzifəsi düşür. Lakin qanunverici müəyyən etmir ki, yazılı bildiriş hansı formalarda göndərilə bilər. Yəni qanunvericilikdə yazılı bildirişin formaları baxımından hər hansı bir məhdudiyyət nəzərdə tutulmayıb, odur ki, istənilən forma və üsulla yazılı bildiriş göndərilə bilər.

**İki yarımparaqrafdan ibarət olan ikinci paraqrafda** faktorinq müqaviləsinin özünəməxsus xüsusiyyətləri və hüquqi təbiəti təhlil edilmişdir.

Faktorinq müqaviləsinə mülki-hüquqi xarakteristika verərkən onu da nəzərə almaq lazım gəlir ki, o, bütün hallarda əvəzli müqavilə sayılır. Əvəzli müqavilələri xarakterizə edən əsas əlamət isə bundan ibarətdir ki, həmin müqavilələrə görə tərəf öz vəzifələrinin icrası müqabilində qarşı tərəfdən (kontragentdən) haqq və ya digər qarşılıqlı əvəz alır. Məhz bu kimi xüsusiyyətə malik olması səbəbindən faktorinq müqaviləsinin əvəzsiz müqavilə şəklində bağlanması qeyri-mümkün olub, istisna edilir. Belə ki, bəzi müqavilələr (məsələn, tapşırıq müqaviləsi, borc müqaviləsi, saxlama müqaviləsi və s.) bağlanma qaydasından və tərəflərin iradəsindən asılı olaraq həm əvəzli, həm də əvəzsiz müqavilə ola bilər. Şübhəsiz, faktorinq müqaviləsi barədə bu sözləri demək olmaz, çünki faktorinq münasibətləri sahibkarlıq münasibətləridir[21]. Sahibkarlıq münasibətləri isə belə bir prinsiplə xarakterizə olunur ki, onlar həmişə əvəzli xarakterə malik olur.

Bunlardan əlavə, faktorinq müqaviləsi əsasında faktorun üzərinə müştəriyə əlavə maliyyə xidmətləri, yəni müştəri üçün mühasibat uçotunu aparmaq, habelə müştəriyə güzəşt predmeti olan pul tələbləri ilə bağlı digər maliyyə xidmətləri göstərmək vəzifəsi də qoyula bilər (AR MM-in 653-cü maddəsinin 4-cü bəndi). Bu kimi hallarda müştəri faktorun göstərilən vəzifəsinə uyğun gələn belə bir hüquqa malik olur ki, o, faktordan ona əlavə maliyyə xidmətləri göstərilməsini tələb edə bilər. Tərəflərin digər vəzifə və hüquqları da vardır ki, onlar AR MM-in faktoriq müqaviləsinin ayrı-ayrı şərtlərinə aid normalarında açıqlanır.

Faktorinq müqaviləsinin mülki-hüquqi xarakteristikasını verərkən həm də göstərmişdik ki, o, müəyyən hallarda çərçivə (haşiyə) xarakteri alır və bu səbəbdən çərçivə (haşiyə) müqaviləsi kimi tanınır. Belə ki, faktorinq müqaviləsində pul tələbinin güzəşt edilməsi müqabilində müştərinin maliyyələşdirilməsi ilə bağlı

[21] Гражданское право. Учебник, том 2. Полутом 2. Отв. ред. Е.А.Суханов. М., "Бек", 2000, с. 230.



faktorinq əməliyyatının həm birdəfəlik (bir dəfəyə), həm də müntəzəm surətdə, sistematik olaraq həyata keçirilməsini nəzərdə tuta bilər. Axırıncı halda, yəni faktorinq əməliyyatı müntəzəm surətdə və sistematik olaraq həyata keçirildiyi halda faktorinq müqaviləsi çərçivə (haşiyə) müqaviləsi şəklində bağlanır.

Təsadüfi deyil ki, Almaniyanın hüquq ədəbiyyatlarında faktorinq müqaviləsi çərçivə müqaviləsi kimi xarakterizə olunur. Çərçivə müqavilələri isə bir qayda olaraq, uzun xarakterli və davamlı münasibətlər üçün hesablanmış konstruksiyadır. Faktorinq müqaviləsinin əsasını təşkil edən inkişaf etmiş bazar dövriyyəsi praktikasına yaxşı məlum olan faktorinq münasibətləri öz hüquqi mahiyyətinə görə pul tələbinin güzəşti hesab edilir ki, belə güzəşt çoxdan bəri öhdəlik hüququnda sessiya kimi tanınır. Almaniyanın hüquq ədəbiyyatlarında məhz bu səbəbdən göstərilir ki, faktorinq münasibətlərinin əsasında sessiya («külli» və ya «konkret») dayanır[22].

Buna görə də, əvvəllərdə qeyd etdiyimiz kimi milli (dövlətdaxili) hüquq sistemlərinin böyük əksəriyyətində müştəri tərəfindən faktora pul tələbinin güzəşt edilməsi sessiya (tələbin güzəşti) institutu çərçivəsində nəzərdən keçirilərək həmin instituta daxil olan hüquq normaları vasitəsilə tənzimlənir.

Lakin adi sessiyadan fərqli olaraq faktorinq münasibətləri kifayət qədər mürəkkəb xarakterə malik olub, özündə alqı-satqı, borc, kredit, tapşırıq, əlavə maliyyə xidmətləri göstərilməsi və digər münasibətlərin elementlərini birləşdirir. Faktorinq əməliyyatının həyata keçirilməsi zamanı yaranan faktorinq münasibətlərinin mürəkkəb olması həm də onunla bağlıdır ki, həmin münasibətlər üçtərəfli xarakterə malikdir.

Hər hansı kommersiya təşkilatının öz üzərinə müştəriyə maliyyə xidmətləri göstərmək öhdəliyi (vəzifəsi) götürmək qabiliyyətinə malik olması onun faktor kimi tanınmasının vacib şərtidir: belə qabiliyyətə malik olarsa, istənilən kommersiya təşkilatı faktor kimi faktorinq müqaviləsinin bağlanmasında iştirak edə bilər. Lakin təkcə bu, kifayət etmir. Faktorinq müqaviləsinin bağlanmasında faktor kimi iştirak etmək üçün eyni zamanda kommersiya təşkilatından tələb olunur ki, o, faktorinq fəaliyyətini həyata keçirməyə icazə alsın, çünki AR MM-in 655-ci maddəsinin 6-cı bəndi müəyyən edir ki, faktorinq müqavilələrini faktor kimi banklar və digər kredit təşkilatları, habelə bu cür fəaliyyəti həyata keçirməyə icazəsi olan başqa kommersiya təşkilatları bağlaya bilərlər. Məhz bu, yəni kommersiya təşkilatlarının faktorinq fəaliyyətini həyata keçirməyə icazəsi olması qanunun faktora münasibətdə xüsusi və ayrıca olaraq müəyyənləşdirdiyi ikinci tələbdir. Lakin qanunverici bu tələbi aydın və açıq şəkildə müəyyənləşdirmir.

Faktorinqi xüsusi icazə (lisenziya) tələb edən fəaliyyət növlərinə daxil etməyən lisenziyalaşdırma qanunvericiliyi təbii ki, xüsusi icazəni (lisenziyanı) verən mərkəzi icra hakimiyyət orqanını (nazirliyi) də müəyyənləşdirə bilməz. Odur ki, belə

[22] Жалинский, Рёрихм А. Введение в немецкое право. М., Спарк, 2001, с. 482-483.

orqanın dəqiq və konkret olaraq müəyyən edilməsini vacib məsələ sayırıq. Bu məsələni həll etmək üçün nəzərə almalıyıq ki, müasir iqtisadi və hüquq ədəbiyyatı səhifələrində «faktorinq» termini ilə adətən kredit və digər təşkilatların iqtisadi dövriyyə münasibətlərində iştirak edən subyektləri maliyyələşdirmək fəaliyyəti əhatə olunur. Doğrudan da, faktorinqi maliyyə fəaliyyəti hesab etmək üçün kifayət qədər əsaslar vardır. Hər şeydən əvvəl onu qeyd edək ki, faktorinqin məqsədi müştəri tərəfindən faktora tələbin güzəşti müqabilində ondan pul vəsaiti almaqdan ibarətdir. Buna görə də söyləyə bilərik ki, faktorinq maliyyələşdirmə əməliyyatından başqa ayrı bir şey deyildir. Təsadüfi deyil ki, bəzi ölkələrin, məsələn, Rusiya Federasiyasının mülki qanunvericiliyində faktorinq termini yox, «pul tələblərini güzəşt etməyin müqabilində maliyyələşdirmə» anlayışı işlədilir, faktor isə «maliyyə agenti» adlanır[23].

Beləliklə, faktorinq pul tələbinin güzəşti müqabilində maliyyələşdirmədir. Lakin «faktorinq» və «pul tələbinin güzəşti müqabilində maliyyələşdirmə» kimi terminləri bəzi müəlliflər kimi eyniləşdirmək, onları bir bərabərdə tutmaq olmaz. Məsələ burasındadır ki, pul tələbinin güzəşti müqabilində maliyyələşdirmənin faktorinqdən başqa, digər formaları da vardır (məsələn, forfeytinq, layihə maliyyələşdirməsi və s.); faktorinq pul tələbinin güzəşti müqabilində maliyyələşdirmənin yalnız mümkün formalarından biridir[24].

**III Fəsil "Beynəlxalq və dövlətdaxili hüquqda faktorinqin hüquqi tənzimlənməsi" adlanmaqla öz tərkibində iki paraqrafı birləşdirir.**

**Birinci paraqrafda** faktorinqə dair beynəlxalq tənzimləmələr tədqiq edilmişdir. Faktorinqin beynəlxalq səviyyədə normativ-hüquqi tənzimlənməsi Beynəlxalq Faktorinq Haqqında Ottava Konvensiyası əsasında həyata keçirilir. Bu Konvensiya faktorinqi beynəlxalq hüquqi baxımdan tənzimləyən əsas sənəd kimi tanınır. Beynəlxalq faktorinq münasibətlərinin normativ tənzimlənməsinə həsr olunan belə bir sənədin qəbul olunmasını nə ilə izah etmək olar? Hüquq ədəbiyyatında bunun iki əsas səbəbi göstərilir.

Əvvəla onu qeyd edək ki, faktorinqdən istifadə olunması əsasən beynəlxalq xarakter daşıyır. Belə ki, bir çox üstünlüklərə malik olması səbəbindən faktorinq beynəlxalq ticarətdə və xarici kommersiya praktikasında kifayət qədər geniş səviyyədə tətbiq olunur. Məhz bu hal faktorinq fəaliyyətinin beynəlxalq səviyyədə normativ-hüquqi tənzimlənməsini zərurətə çevirmişdir.

İkincisi, xüsusi tənzimetmənin olmaması aydın məsələdir ki, faktorinqin hüquqi nizamlanmasında bəzi problemlərin yaranmasına gətirib çıxarmışdır. Bu problemləri müəyyən dərəcədə həll etmək niyyəti faktorinqin beynəlxalq fəaliyyətə çevrilməsinə səbəb olmuşdur. Bunun nəticəsində XX əsrin 60-80-ci illərindən başlayaraq faktorinq fəaliyyətinin əsasən və başlıca olaraq beynəlxalq ticarət praktikasında həyata keçirilməsi meyli müşahidə olunur.

[23] Комментарий к Гражданскому кодексу Российской Федерации. Том 1. Части I, II, ГП РФ. Под ред. Т.Е.Абовой, А.Ю.Кабалкина. М., "Юрайт", 2009, с. 673.
[24] Rose Mary H. American Factoring Law (Book Review) // American Bankruptcy Institute Journal. Oct 2011; 30; 8, p 48.



Faktorinqin beynəlxalq fəaliyyətə çevrilməsi və beynəlmiləlləşməsi, ölkələrin əksəriyyətinin milli hüququnda faktorinq barədə xüsusi normaların olmaması, habelə ayrı-ayrı dövlətlərin mülki qanunvericilikləri və onların faktorinq münasibətlərinə tətbiqi praktikası arasında kifayət qədər mühüm fərqlərin mövcudluğu beynəlxalq səviyyədə həmin münasibətlərin hüquqi tənzimlənməsini zəruri hala gətirmişdir. Təbii ki, bunun üçün faktorinqin beynəlxalq hüquqi tənzimlənməsinə həsr olunan hər hansı konvensiyanın qəbul edilməsi tələb edilirdi. Beynəlxalq faktorinqin tənzimlənməsinə həsr olunan konvensiyanın layihəsini hazırlamaq üçün UNİDRUA (Xüsusi Hüququn Unifikasiyası üzrə Beynəlxalq İnstitut) işə başladı: onun çoxillik intensiv fəaliyyəti nəticəsində hazırladığı 1988-ci ilin may ayında Ottava şəhərində (Kanada) keçirilən diplomatik konfransda 16 dövlət tərəfindən BMT-nin konvensiyası kimi imzalanmışdır. 1995-ci ildən isə qüvvəyə minmişdir.

AR həmin Konvensiyanın iştirakçısı deyil, lakin onun müəyyənləşdirdiyi norma və prinsiplərin əksəriyyəti bundan bir az əvvəldə göstərdiyimiz kimi, bizim ölkə qanunvericisi tərəfindən qəbul olunmuş və AR MM-in 29-cu fəslinin 7-ci paraqrafında öz rəsmi ifadəsini tapmışdır. Başqa sözlə, Beynəlxalq Faktorinq Haqqında Ottava Konvensiyası faktorinq münasibətlərini tənzimləyən qaydaların işlənib hazırlanması və həmin qaydaların AR MM-ə daxil edilməsi üçün əsas olmuşdur. Şübhə yoxdur ki, AR-in hazırda qüvvədə olan Mülki Məcəlləsi hazırlanarkən həmin konvensiyanın müddəaları bizim ölkə qanunvericisi tərəfindən nəzərə alınmışdır.

Konvensiyanın az sayda dövlət tərəfindən imzalanmasına (qəbul edilməsinə) baxmayaraq, bütövlükdə faktorinqin beynəlxalq səviyyədə tənzimlənməsinə böyük təsir göstərməklə faktorinq fəaliyyətinin inkişafında şəksiz müsbət rol oynayır. Belə ki, faktorinq münasibətləri sahəsində ayrıca qanunvericiliyi olmayan və praktiki olaraq həmin münasibətlərin tənzimlənməsinə həsr olunan heç bir xüsusi norma müəyyənləşdirməyən bir çox dövlətlər üçün Ottava Konvensiyası faktorinq barədə öz milli qanunvericiliklərini yaratmaq məsələsində əsas amillərdən biri olmuşdur. Təsadüfi deyildir ki, sözügedən dövlətlər tərəfindən faktorinqin daxili hüquq sistemlərində tənzimlənməsi və onu tipik müqavilə növlərindən biri kimi tanımaları məhz Ottava Konvensiyasının qəbul olunmasından sonrakı dövrə təsadüf edir. Bununla bilavasitə olmasa da, dolayı yolla beynəlxalq faktorinq barədə qaydalar unifikasiya edilmiş oldu. Ottava Konvensiyasının əsas xüsusiyyəti ondan ibarətdir ki, bu konvensiya müxtəlif milli hüquq sistemlərinin qanunvericilik təcrübəsini və praktikasını nəzərə almaqla beynəlxalq faktorinq münasibətlərinin unifikasiyalaşdırılmış hüquqi tənzimlənməsini həyata keçirir və bu tənzimetmə müasir beynəlxalq iqtisadi dövriyyənin tələblərinə uyğun gəlir. Konvensiya həm də indiyə kimi ayrı-ayrı milli hüquq sistemləri səviyyəsində öz həllini tapmayan bəzi məsələlərin həll olunmasına, onların hüquqi tənzimlənməsinə imkan verir.

Konvensiya eyni zamanda iki halda tətbiq oluna bilər: maliyyə agentinin (faktorun) kommersiya müəssisəsinin yerləşdiyi dövlət konvensiya iştirakçısı

olduğu halda; beynəlxalq alğı-satqı müqaviləsi və faktorinq müqaviləsi konvensiya iştirakçısı olan dövlətin qanunvericiliyi ilə tənzimləndiyi halda.

Bununla yanaşı, beynəlxalq faktorinq müqaviləsinin tətbiq sferası məhdudlaşdırılaraq istisna edilə bilər. Bundan ötrü Konvensiyanın 3-cü maddəsində iki yol göstərilir. Birinci yolun mahiyyəti ondan ibarətdir ki, faktorinq müqaviləsinin tərəfləri (mal göndərən satıcı və maliyyə agenti) konvensiyanın tətbiq olunması barədə öz aralarında razılığa gələ bilərlər; bu zaman faktorinq müqaviləsi formal olsa da konvensiyanın tətbiq olunma sferasına aid edilsə də konvensiyadan faktorinq münasibətlərini tənzim etməkdən ötrü istifadə edilmir. Bu yolla tərəflər Ottava Konvensiyasının tətbiq olunması ilə bağlı istisna müəyyən edirlər. İkinci yolun mahiyyəti isə bundan ibarətdir ki, hələ faktorinq müqaviləsi bağlanmamışdan əvvəl əsas müqavilə sayılan beynəlxalq alqı-satqı müqaviləsinin (faktorinq müqaviləsinin bağlanması üçün əsas olduğuna görə o, belə adlanır) tərəfləri (mal göndərən satıcı və alıcı) həmin müqavilədə əgər faktorinq müqaviləsi bağlanarsa, pul tələbinə münasibətdə Konvensiyanın müddəalarının tətbiq olunması barədə şərt nəzərdə tuta bilərlər. Məhz belə şərt Konvensiyanın birbaşa tətbiq olunmasını mümkün edir. Ottava Konvensiyası müəyyən edir ki, tərəflər Konvensiyanın ayrı-ayrı hissələrinə (onun hər hansı hissəsinə) münasibətdə yox, bütövlükdə Konvensiyaya münasibətdə istisna müəyyən edə bilər. Bu o deməkdir ki, tərəflər öz aralarında Konvensiyanın ayrı-ayrı hissələrinin yox, bütövlükdə Konvensiyanın tətbiq edilməsi barədə razılığa gələ bilərlər. Konvensiyanın 3-cü maddəsində bu hal açıq göstəriş şəklində ifadə edilmişdir.

Bundan başqa Konvensiyanın 17-ci maddəsinə uyğun olaraq konvensiya iştirakçısı olan iki və ya daha artıq dövlət əgər onların faktorinq münasibətlərini tənzimləyən daxili (milli) qanunvericiliyi olarsa, nəzərdə tuta bilərlər ki, Ottava Konvensiyası tətbiq edilməsin, bu şərtlə ki, maliyyə agenti (faktor), mal göndərən və ya borclu (debitor) həmin dövlətlərin ərazisində olsunlar. Bütün bunların hamısı, yəni Ottava Konvensiyasının tətbiq edilməsi məsələsində tərəflərin istisna müəyyən etmələrinin mümkünlüyü onda belə bir fikir söyləməyə əsas verir ki, həmin Konvensiya imperativ xarakter daşımır.

Ottava Konvensiyasına görə tərəflər arasında bağlanan müqaviləyə görə, maliyyə agenti (faktor) aşağıdakı əməliyyatlardan, heç olmazsa, ikisinin aparılmasını öz üzərinə götürdükdə, müqavilə beynəlxalq faktorinq müqaviləsi hesab edilir: kredit (borc) və avans (qabaqcadan ödəniş) vermək də daxil olmaqla mal göndərəni maliyyələşdirmək; mal göndərənin pul almaq (borc) tələblərinə aid (söhbət tələbin güzəşti olan pul tələblərindən gedir) mühasibat işini aparmaq (yəni mal göndərənə çatası məbləğlərin - mühasibat kitablarının uçotunu aparmaq); mal göndərənə çatası borcları almaq, yəni borcu beynəlxalq alğı-satqı müştərisi üzrə qarşı tərəf olan alıcıdan almaq (yəni borcludan satış pullarını yığmaq); borclunun ödəniş qabiliyyətsizliyindən mal göndərənin mənafeyini müdafiə etmək.

**İkinci paraqrafda** bəzi aparıcı hüquq sistemlərində və AR-də faktorinqə qanunvericilik nöqteyi-nəzərindən yanaşma nəzərdən keçirilmişdir. Belə ki, bizim



ölkəmizdə faktorinq institutunun hüquqi tənzimlənməsi AR MM-in qüvvəyə minməsi vaxtına (1 sentyabr 2000-ci il) təsadüf edir. Ona görə ki, məhz həmin vaxtdan etibarən AR mülki qanunvericiliyinin əsas kodifikasiya olunmuş aktı sayılan Mülki Məcəllə səviyyəsində ölkə tarixində ilk dəfə olaraq faktorinqin hüquqi tənzimlənməsi həyata keçirilməyə başlandı. Özündə faktorinqə aid normaları da nəzərdə tutan həmin məcəllə qüvvəyə mindiyi andan faktorinq AR-in müqavilələr hüququ sisteminin qanuni tərkib hissəsinə çevrilmiş, mülki-hüquqi müqavilələrdən biri kimi qanunən tanınmışdır.

Maraqlı haldır ki, inkişaf etmiş bazar iqtisadiyyatlı Qərb ölkələrinə faktorinq XIX əsrdən məlum olsa da, həmin ölkələrin əksəriyyətində nəinki Mülki Məcəllə səviyyəsində (kodifikasiya halında) tənzimlənmir, hətta onu xüsusi olaraq nizama salan hüquq normaları belə mövcud deyil. Bu ölkələrdə faktorinqin normativ-hüquqi bazasını Mülki Məcəllənin ayrı-ayrı maddələri, habelə ticarət, vergi və digər qanunvericilik sahələrinin müəyyənləşdirdiyi normalar təşkil edir. Bu cəhətdən, yəni faktorinq barədə xüsusi qanunvericiliyin olması baxımından ölkələri iki qrupa bölmək olar: faktorinq barədə xüsusi qanunvericiliyi olmayan ölkələr və faktorinq barədə xüsusi qanunvericiliyi olan ölkələr.

Qeyd etməliyik ki, faktorinq barədə xüsusi qanunvericiliyi olmayan ölkələr sırasına, ilk növbədə Almaniya daxildir. Almaniyanın nə Mülki Qanunnaməsində, nə də Ticarət Məcəlləsində faktorinq əməliyyatının xüsusi olaraq tənzimlənməsinə həsr olunan müvafiq hüquq normaları nəzərdə tutulmuşdur. Odur ki, faktorinqdən yaranan münasibətlərin hüquqi tənzimetmə mənbəyini Mülki Qanunnamənin ayrı-ayrı maddələri, əsasən də həmin qanunnamənin öhdəlik hüququnun ümumi hissə normaları, habelə ümumi nizamasalma predmeti olan vergi və bəzi digər qanunvericilik sahələrinin normaları təşkil edir.

Hüquq ədəbiyyatında göstərilir ki, Almaniya məhkəmə praktikasında adətən öhdəliklər haqqında ümumi müddəalara, habelə tələblərin alqı-satqı müqaviləsi üzrə tərəflərin (satıcı və alıcının) əsas hüquq və vəzifələri barədə qaydalara istinad olunur. Xüsusən də Almaniya Mülki Qanunnaməsinin 433-cü paraqrafında ifadə olunan belə bir norma tətbiq edilməlidir ki, alqı-satqı müqaviləsi üzrə satıcı alıcıya üçüncü şəxslərə məxsus olan hüquqlardan azad mal verməlidir[25].

Faktorinq barədə xüsusi qanunvericiliyi olmayan ölkələrdən biri Fransa hesab edilir. Belə ki, bu ölkənin milli - dövlətdaxili hüququnda faktorinq barədə xüsusi, ayrıca olaraq onun tənzimlənməsi üçün nəzərdə tutulan normalar yoxdur. Faktorinq münasibətlərini tənzimləyən xüsusi qanunvericilik mövcud olmadığına görə bu münasibətləri hüquqi nizamlamaqdan ötrü Fransada öhdəlik hüququnun ümumi normalarından istifadə olunur ki, bu normalar Fransa Mülki Məcəlləsinin öhdəlik hüququ məsələlərini tənzimləyən üçüncü kitabında cəmlənmişdir. Söhbət ilk növbədə, öhdəliklərin verilməsi (keçirilməsi) barədə

[25] Гражданское и торговое права зарубежных государств. Учебник. Том 2. Отв. ред. Е.А.Васильев, А.С.Комаров. М., Международные отнешения, 2005, с. 184.

normalardan gedir ki, həmin normalar Fransa Mülki Məcəlləsinin 1689-1701-ci maddələrində («satış» adlı 6-cı titulda) ifadə olunmuşdur. Elə buradaca dərhal qeyd etməliyik ki, Fransa Mülki Məcəlləsi yalnız öhdəliyin aktiv elementi olan tələb hüququnun (tələbin) verilməsini (güzəştini) nəzərdə tutur və öhdəliyin passiv elementi olan borcun keçirilməsini tənzimləmir.

ABŞ-da faktorinq əməliyyatının normativ-hüquqi bazasını Vahid Ticarət Məcəlləsi təşkil edir ki, bu Məcəllənin 9-cu bölməsi həmin əməliyyatın hüquqi tənzimlənməsinə həsr olunmuşdur. Bu bölmənin vasitəsi ilə faktorinq münasibətlərinin əsas normativ-hüquqi tənzimlənməsi həyata keçirilir. Həmin bölmə olduqca ətraflı şəkildə təminat maraqlarını (security interests) tənzim edir ki, belə maraqlar istənilən daşınar əmlakda yarana bilər. Lakin qeyd etməliyik ki, faktorinq əməliyyatı öz xarakterinə görə təminat marağı yaradan vasitə yox, pul tələbinin alqı-satqısıdır, çatmalı olan ödənişin satın alınmasıdır (accounts), təsadüfi deyil ki, ABŞ qanunvericiliyi faktorinqə münasibətdə alqı-satqı konstruksiyasından istifadə edir. Vahid Ticarət Məcəlləsində nəzərdə tutulan «təminat marağı» anlayışı 9-cu bölmə çərçivəsində çatmalı olan ödənişi satın alan şəxsin (alıcının) istənilən marağına aid edilir. Bununla bərabər, Vahid Ticarət Məcəlləsinin 1-201-ci maddəsində birbaşa göstərilir ki, 9-cu bölmə pul tələblərinin alqı-satqısına tətbiq edilir. Faktorinq mahiyyətcə pul tələblərinin - çatmalı olan ödənişlərin (accounts) alqı-satqısı olduğundan həmin bölmə faktorinq münasibətlərini tənzimləməkdən ötrü istifadə oluna bilər. Hüquq ədəbiyyatında göstərilir ki, Vahid Ticarət Məcəlləsinin 9-cu bölməsi çatmalı olan ödənişlərin alqı-satqısını tənzimləyir[26].

Faktorinq barədə xüsusi qanunvericiliyi olan ölkələrdən biri İngiltərə hesab olunur. Belə ki, bu ölkədə ABŞ-da olduğu kimi, faktorinq münasibətlərinin normativ-hüquqi tənzimlənməsinə həsr edilən ayrıca normalar mövcuddur. Başqa sözlə, İngiltərədə faktorinq əməliyyatı xüsusi normalarla nizama salınır ki, həmin normalar Mülkiyyət haqqında 1925-ci il tarixli Qanunda (Property Act) nəzərdə tutulmuşdur. Məhz onlardan istifadə olunmaqla faktorinq münasibətlərinin normativ-hüquqi tənzimlənməsi həyata keçirilir. Faktorinq barədə xüsusi qanunvericiliyi olan ölkələr sırasına Rusiya Federasiyası da daxildir. 1996-cı ilin mart ayının 1-də bu ölkənin Mülki Məcəlləsinin ikinci hissəsinin qüvvəyə minməsi ilə faktorinq Rusiya Federasiyasının müqavilə hüququnun elementlərindən biri kimi tanınmışdır. Belə ki, həmin Məcəllənin 43-cü fəslində ifadə olunan normalar faktorinqin hüquqi tənzimlənməsinə həsr olunmuşdur (824-833-cü maddələr). Bu isə onu ifadə edir ki, Rusiya Federasiyasında faktorinq əməliyyatı barədə xüsusi qanunvericilik, həmin əməliyyatı kodifikasiya şəklində normativ-hüquqi tənzimetmə mövcuddur.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, dövlətdaxili normativ hüquqi sistem üçün onların nəzəri-praktiki əhəmiyyəti ifadə edilmişdir.

[26] Tatge David B., Tatge Jeremy B. Fundamentals of factoring// Practical Law The Journal. September 2012, pp. 61, 63.



**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**

1. Faktorinq – mülki-hüquqi müqavilələrin müstəqil növü kimi. Hüquqi dövlət və qanun, 2009, №11, s. 37-39.
2. Faktorinq müqaviləsinin məzmunu. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş “Dövlət və hüquq quruculuğunun aktual problemləri” mövzusunda elmi-praktik konfransının (11-12 may 2011-ci il) materialları, 2011, I cild, s. 170-172.
3. Faktorinqin tarixi inkişafı. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013, № 2 (34), s. 226-234.
4. Faktorinq və faktorinq əməliyyatı anlayışı. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2014, № 4(40), s. 226-235.
5. Xarici ölkələrdə və Azərbaycan Respublikasında faktorinqə yanaşmanın xüsusiyyətləri. Nəqliyyat hüququ, 2014, № 4, s. 236-248.
6. Faktorinqin beynəlxalq hüquqi tənzimlənməsi. Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri. Humanitar elmlər seriyası, 2014, №40, s. 98-102.
7. Право и обязанности сторон по договору факторинга. Наука і правоохорона, Киев (Украина), 2014, №4 (26), с. 289-296.
8. Azerbaycan hukukunda faktorinqin hukuki niteliği. Meliksah law journal, 2014, june(haziran), s. 119-141.
9. Faktorinq müqaviləsində iştirak edən tərəflər. Qanun, 2014, №12 (242), s. 72-74.
10. Faktorinq müqaviləsinin ünsürləri. Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, 2014, №62, s. 259-261.
11. Развитие факторинга в зарубежных странах. Закон и право (Москва), 2014, №12, с. 78-80.
12. Договор факторинга: теоретический и практический аспект (на практике Азербайджанской Республики). Матеріали V Міжнародноі науково-практичноі конференціі - Юридична наука і практика: виклики часу. Київ, 2015, том III, с. 63-67.
13. Faktorinq müqaviləsi: əsas istiqamətlər və yeni yanaşmalar. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2015, s. 342-345.

## РЕЗЮМЕ

Диссертационная работа на тему «Факторинг в гражданском праве: правовые аспекты», представленная Тагиевым Даянат Адигёзал оглы на соискание ученой степени кандидат юридических наук по специальности 5608.01- «Гражданское право; право собственности; семейное право; международное частное право», является независимым и творческий исследованием, посвященным одному из актуальных теоретико-практических направлений гражданского права. Диссертационная работа построена на сравнительном анализе существующего в юридической литературе разногласия, на изучении гражданского законодательства Азербайджанской Республики и отдельных зарубежных стран, а также международной договорной практики по факторингу. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы исследования, приводится информация о степени разработанности темы, о положениях, представленных к защите, целях и задачах исследования, а также о его теоретическом и практическом значении.

Глава I называется «История формирования и развития факторинга, его функции и классификация» и состоит из четырех параграфов. В этой главе рассматривается вопрос формирования и развития факторинга, разъясняется понятие факторинга и факторинговых операций, указывается на существующее в юридической литературе разногласие по данному вопросу, для внесения ясности в суть понятия факторинга анализируются его функции, исследуются виды факторинга, являющегося одним из довольно сложных правоотношений.

Глава II, которая называется «Сущность, специфические особенности и правовая природа договора факторинга», состоит из двух параграфов, сочетающих в себе пять подпараграфов. В этой главе подробно проанализирован правовой статус сторон договора факторинга, в том числе специфические особенности и правовая природа договора факторинга.

Третья глава диссертационной работы называется «Правовое регулирование факторинга в международном и внутригосударственном праве» и состоит из двух параграфов. В этой главе рассматриваются вопросы международного регулирования факторинга, а также подходы к проблеме факторинга в Азербайджанской Республике и ряде ведущих систем права с точки зрения законодательства.

В заключительной части диссертационной работы отмечаются важные предложения и выводы, полученные в результате исследования, обосновывается их теоретическое и практическое значение для международного и внутригосударственного права.



## SUMMARY

The dissertation work presented by Dayanat Adgozel Taghiyev for attaining the degree of PhD in the specialisation “5608.01 –Civil law; business law; family law; private international law” on the topic “Factoring in civil law: legal aspects” is independent and creative work and devoted to one of thetheoretical and practical courses of civil law. The dissertation work is formed on the basis of comparative analysis of diverse points of views existing in the legal literature, on the civil law legislation of different countries and Azerbaijan as well, and on international treaties’ experience regarding factoring. The dissertation work consists of introduction, three chapters, conclusion and bibliography.

In the introductiontopicality of the work is substantiated, the degree of its studying, provisions for the defence, aims and goals, and the theoretical and practical importance of researchhave been considered.

The first chapter is called “Formation of the factoring and development history, its functions and classification” and comprises four paragraphs. In this chapter formation of the factoring and its development historyare considered, the notions “factoring” and “factoring operations” are explained, diverse points of views existing in the legal literature in this direction are shown, the functions of factoring are analyzedfor the purpose of clarifying the essence of factoring,the types of factoring, which is a very complicated legal relation by its legal nature, are studied.

The second chapter of the dissertation work is called “Essence of the contract of factoring, its  specific features and legal nature” and contains two paragraphs, which are consisted of five subparagraphs. In this chapterlegal status of the parties of contract of factoring, including specific features of contract of factoring and the problem of its legal nature are analyzed in detail.

In the third chapter, contained two paragraphsand named “Legal regulation of factoring in international and domestic law”, international regulations with regard to factoring, furthermore, approaches in some leading legal systems and in the Republic of Azerbaijan on the legislative point of view are considered.

The conclusion of the dissertation work is comprised of suggestions that are made and results that are achieved in the end of the dissertation work and their theoretical and practical importance for the domestic and international law.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ДАЯНАТ АДИГЁЗАЛ оглы ТАГИЕВ**

# ФАКТОРИНГ В ГРАЖДАНСКОМ ПРАВЕ: ПРАВОВЫЕ АСПЕКТЫ

**СПЕЦИАЛЬНОСТЬ: 5608.01 - «Гражданское право; предпринимательское право; семейное право; международное частное право»**

**А В Т О Р Е Ф Е Р А Т**
**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2015**